# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 89

*Milli Məclisin iclas salonu.*
*19 fevral 2019-cu il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**İdris İsayev**, Azərbaycan Respublikası təhsil nazirinin müavini.

**Məhəbbət Vəliyeva**, Azərbaycan Respublikası təhsil nazirinin müavini.

**Fərzəli Qədirov**, Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatı rəhbərinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisi Gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilməsi haqqında.

2. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

3. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

4. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

5. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

6. “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

9. “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

10. “Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Əmək pensiyaları haqqında” Azərbaycan Respub-

likasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

13. "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

16. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

18. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

19. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

20. “Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

21. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

22. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

23. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

24. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

25. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

26. “Telekommunikasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

27. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisi Gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilməsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**4. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**5. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**6. "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**9. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**10. "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**11. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Fazil Mustafa, Azər Badamov, Sədaqət Vəliyeva, Siyavuş Novruzov, Fəzail Ağamalı, Aydın Mirzəzadə, Tahir Mirkişili, Səttar Möhbalıyev, Çingiz Qənizadə, Sahib Alıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**13. "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Eldar İbrahimov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**14. "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Əflatun Amaşov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**15. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**16. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmə-**

**si barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fazil Mustafa, Aytən Mustafazadə

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**18. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**19. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ülvi Quliyev, Ziyafət Əsgərov, Fazil Mustafa, İlham Məmmədov, Eldar Quliyev, Bəxtiyar Əliyev, Gövhər Baxşəliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 75 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 76 |

Nəticə: Yetərsay yoxdur

| **Qeydiyyat** | (saat 13.42 dəq.) |
|---|---|
| İştirak edir: | 80 |

Yetərsay yoxdur

| **Qeydiyyat** | (saat 13.45 dəq.) |
|---|---|
| İştirak edir: | 80 |

Yetərsay yoxdur

| **Qeydiyyat** | (saat 13.45 dəq.) |
|---|---|
| İştirak edir: | 88 |
| Yetərsay | 83 |

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–4-cü maddələri qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Maddələr 5–7 qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Maddələr 9–11 qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**20. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.16 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**21. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**22. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.19 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**23. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.20 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**24. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Ziyad Səmədzadə, Qüdrət Həsənquliyev, Əflatun Amaşov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

**25. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**26. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**27. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov, İsa Həbibbəyli, Qüdrət Həsənquliyev, Musa Qasımlı, Fəzail Ağamalı, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.45 dəq.) |
|---|---|
| Lehinə | 75 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 76 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.46 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–19-cu maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 79 |

Nəticə: Yetərsay yoxdur

**Təklif:** Layihənin adı, preambulası, 1–19-cu maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.59 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| Təklif: Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 15.00 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*19 fevral  2019-cu il. Saat 12.*

*Azərbaycan Respublikası  Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
|---|---|
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi. Bugünkü iclasın gündəliyində 27 məsələ var. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Milli Məclisi Gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilməsi haqqındadır. Bu dəyişikliklər sizə verilib, hamınızda var. Başqa təklif yoxdur? Xahiş edirəm, dəyişikliklərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 2-ci məsələsi "Kitabxana işi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Rəfael Hüseynov.

**R.Hüseynov,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli millət vəkilləri, yeni zamanın, elektronlaşma əsrinin tələbləri Azərbaycan kitabxana şəbəkəsinin yenidən qurulması zərurətini yaradıb və bununla əlaqədar yanvar ayının 15-də Azərbaycan Respublikasının Prezidenti bir sıra mədəniyyət müəssisələrinin yenidən qurulması ilə əlaqədar fərman imzalayıb. Orada Azərbaycanın yeni, mütərəqqi və bütün ölkə ərazisini əhatə eləyən kitabxana şəbəkəsinin yaradılması haqqında ayrıca bənd var. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişiklik ilk növbədə bu elektronlaşma məsələsi, eləcə də nəşr olunmuş kitabların

nüsxələrinin və onların elektron variantlarının kitabxanalara verilməsi, kitabxana fondunun zənginləşməsi ilə əlaqədardır. Güman edirəm ki, bunlar çox mütərəqqi, gərəkli, vaxtında olan dəyişikliklərdir və həmkarlarımızı bu dəyişikliklərə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 3-cü məsələsi. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə, üçüncü oxunuşdur. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlar. Bu sənəd 3-cü dəfədir ki, parlamentdə müzakirə olunur. Deməк, iki məcəlləyə dəyişiklik edilir. Dəyişikliyin mahiyyətində elektron hökumət elementləri durur. Bunun nəticəsində ölkədə şəffaflıq bərqərar olunur, eyni zamanda, burada əlçatanlıq, məşğulluqla bağlı imkanların artması və beləliklə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi elementləri əksini tapır. Demək, Əmək Məcəlləsində 3-cü maddə ilə 14-cü maddəyə kiçik dəyişiklik edilir.

Cəzaların İcrası Məcəlləsində isə 90-cı maddədə bir neçə dəyişiklik edilir. Burada mahiyyət ondan ibarətdir ki, cəzaçəkmə müəssisəsində də sosial müdafiə ilə bağlı mərkəzləşmiş tədbirlər həyata keçirilir, yəni pensiyaların, sığorta haqlarının ödənilməsi mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Bu addımlar dövlətin rolunun artırılmasına, eyni zamanda, əhalinin güzəranının yaxşılaşdırılmasına xidmət edir. Xahiş edirəm, deputat həmkarlarım səs versinlər.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 3-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

4-cü, 5-ci, 6-cı məsələlər bir zərfdə gəlib. Onlar da üçüncü oxunuşdur. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Hər 3 qanunda dəyişiklik Əqli Mülkiyyət Agentliyinin yaradılması ilə əlaqədardır. Mən ikinci oxunuşda məlumat vermişdim, heç bir təklif daxil olmamışdır. Ona görə də millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, üçüncü oxunuşda gündəliyin 4-cü məsələsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, gündəliyin 5-ci məsələsinə, “Əmtəə nişanları və coğrafi göstəriciləri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, gündəliyin 6-cı məsələsinə, “Patent haqqında” Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 7-ci məsələsi. Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında qanun layihəsi. Üçüncü oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli cənab Sədr. Cənab Sədr, icazə versəniz, oxşarlığına, komitə tərəfindən hazırlandığına görə Dövlət gerbindən istifadə qaydaları haqqında və Dövlət himnindən istifadə qaydaları haqqında, o cümlədən komitələr haqqında qanun layihələrini birgə məruzə edərdim.

Hörmətli həmkarlar, bilirsiniz ki, Konstitusiya bizim üzərimizə Dövlət gerbindən və Dövlət himnindən istifadə qaydaları haqqında xüsusi qanunun qəbul olunması ilə bağlı bir öhdəlik qoymuşdur. Komitə tərəfindən bu iş həyata keçirildi, ekspertlər cəlb olundu, digər qanunvericilik təşəbbüsü subyektləri ilə məsləhətləşmələr aparıldı. Fürsətdən istifadə edib, həm komitəmizin, həm də Milli Məclisin bütün üzvlərinə təşəkkür edirəm. Çox dəyərli təkliflərlə hər iki layihəni daha da zəngin etdilər. Mən artıq nəzərə alınmış və tam yekunlaşmış qanun layihələrini indi üçüncü oxunuşda diqqətinizə təqdim eləmək istəyirəm.

Hər iki layihəyə dövlət rəmzlərinin müəlliflik hüququ ilə bağlı 5-ci maddə əlavə edildi. Öncə də mən qeyd etmişdim ki, bu qanun layihələrini hazırlayarkən biz vaxtı ilə “Dövlət bayrağından istifadə qaydaları haqqında” Qanunun quruluşuna və tələblərinə uyğun hərəkət etmişik.

İkincisi, “Reklam haqqında” Qanunun 4.4-cü maddəsində dövlət rəmzləri ilə bağlı nəzərdə tutulmuş məhdudiyyət hər iki layihədə təsbit edildi. “Reklam haqqında” Qanuna əsasən reklamda Azərbaycan Respublikasının dövlət rəmzlərinin təhrifinə yol verilə bilməz.

Üçüncü vacib məqam. Hərbi dəfn, şəhidlərin dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi nəzərdə tutulmuş şəxslərin dəfn mərasimində Dövlət himnini ifa etmə qaydası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qaravul xidmətinin nizamnamələrində göstərilmişdir. Dövlət himnindən istifadə qaydaları haqqında qanun layihəsində həmin nizamnaməyə istinadla bağlı yeni normalar təsbit etdik.

Hər iki layihə ilə bağlı hörmətli Ziyafət müəllimin bir sıra vacib təklifləri olmuşdu. Onlar əsaslı idi və işçi qrupu tərəfindən nəzərə alındı. Belə ki, Dövlət gerbindən istifadə qaydaları haqqında qanun layihəsinin 7.1-ci maddəsinə “müvafiq icra hakimiyyəti orqanının” sözləri əlavə edildi. Çünki təklifə görə müvafiq icra hakimiyyəti orqanının rəsmi nəşrlərində də, – yəni müvafiq icra orqanı deyəndə cənab Prezident nəzərdə tutulur, – Dövlət gerbinin rəngli təsviri əks olunmalıdır. Ziyafət müəllimin təklifi əsasında Dövlət himninin istifadə qaydaları haqqında qanun layihəsinin 6-cı maddəsində “sessiyalarının” sözü “növbəti və növbədənkənar sessiyalarının” sözləri ilə əvəz edildi. Çünki məhz bu hallarda da Dövlət himni ifa olunur.

Həm Ziyafət müəllimin, həm digər millət vəkillərinin komitə müzakirəsində də himnin dinlənilməsi və oxunması qaydası ilə bağlı geniş təklifləri ilə bağlı da ümumi bir rəyə gələ bildik. Qərar alındı ki, 6.3-cü və 6.4-cü maddələrə “farağat vəziyyətdə” sözləri əlavə edilsin. Həmin maddələrdə Azərbaycan Respublikasının Dövlət himni ifa

edildikdə onun dinlənməsi və oxunması qaydaları göstərilir. Təklifə görə dövlət himni ifa edildikdə Azərbaycan Respublikası vətəndaşları Dövlət himnini farağat vəziyyətdə dinləməli və oxumalı, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət himnini farağat vəziyyətdə dinləməlidilər. Açığı deyim ki, burada əlin qoyuluşu barədə də fikirlər olmuşdu. Amma biz beynəlxalq təcrübəyə baxdıq və gördük ki, bu, qanunvericilikdə öz əksini tapmır, bir ənənə xarakteri daşıyır. Ona görə kim istəsə, bu ənənəni həyata keçirə bilər, bu məsələdə sərbəstdirlər. Amma hesab edirəm, tamamilə düzgün bir təklif oldu ki, Dövlət himni məhz farağat vəziyyətdə dinlənməli və oxunmalıdır.

Hörmətli həmkarlar, bir daha sizə təşəkkür edirəm, dövlətçilik, dövlət atributları baxımından çox əhəmiyyəti olan bu iki qanunun müzakirələrində, qəbulunda belə fəal iştirak elədiniz və ümidvaram ki, səs verib üçüncü oxunuşda qəbul edəcəyik.

Milli Məclisin komitələri haqqında qanunda isə əvvəllər də məruzə eləmişdik, sırf komitələrin səlahiyyətləri burada qanunvericiliyə uyğun olaraq dəqiq göstərilir. Hər 3 layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Ziyafət Əsgərov buyursun.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli deputat həmkarlarım, Azərbaycan Respublikasının Dövlət himnini və Azərbaycan Respublikasının Dövlət gerbinin istifadə qaydaları haqqında qanun layihələrinin ikinci oxunuşda müzakirəsi gedərkən hörmətli Gövhər xanım partitura ilə bağlı bir təklif vermişdi. Sadəcə, yadınıza salmaq istəyirəm ki, biz 2018-ci il noyabrın 2-də "Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni haqqında" Konstitusiya Qanunu qəbul etdik və həmin qanunda göstərilib ki, Azərbaycan himninin musiqisi, mötə-

rizədə partiturası. Yəni o, artıq orada təsbit olunubdur. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 7-ci məsələsinə, Dövlət gerbinin istifadəsi qaydaları haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, gündəliyin 8-ci məsələsinə, Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

9-cu məsələ. “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti, 10-cu məsələ "Əmanətlərin tam sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən əmanətlərin tam sığortalanması daha bir il uzadılacaq. "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi bizim komitədə müzakirə edilmişdir. Millət vəkilləri birmənalı şəkildə bu qanun layihəsini dəstəklədilər. Xatırladaq ki, əmanətlərin tam sığortalanması barədə qərar 2016-cı ilin martında qüvvəyə minmişdir və bu il martın 4-də qüvvədə olma müddəti başa çatır. Buna görə də Prezident İlham Əliyev tərəfindən əmanətlərin tam sığortalanması 2020-ci ilin mart ayına qədər uzadılır.

Sığortalanmış əmanət qorunan əmanətlərin elə bir hissəsidir ki, əmanətçiyə xidmət göstərən iştirakçı bankda sığortalanmış əmanətlərlə bağlı problem yaranan zaman fond tərəfindən kompensasiya olunur. Bütövlükdə, Prezident İlham Əliyevin qərarı əmanətçilərin maraqlarını ifadə edir, çünki potensial əmanətçilər üçün təşviq mexanizmdir. Əmanətlərin tam sığortalanması gələcəkdə, xüsusilə manatla əmanətlərin həcminin artmasına əlverişli şərait yaradacaqdır. Azərbaycan manatının regionda sabit valyuta olması və ölkəmizdə inflyasiyanın aşağı həddi şəraitin-

də əhali üçün banklarda əmanət yerləşdirmək daha əlverişlidir. Prezident İlham Əliyev tərəfindən əmanətlərin tam sığortalanması əhalinin banklara etimadını daha da gücləndirəcəkdir. Eyni zamanda, bu qərar bankların maraqlarına da uyğundur. Çünki dövlətin dəstəyi ilə əmanət cəlb eləməklə banklar likvidliklə təmin olunur. Yaranmış makroiqtisadi sabitlik şəraitində üstəlik əmanət cəlbinin də təmin edilməsi banklar üçün böyük imkanlar açır.

Qlobal və regional sahələrdə iqtisadiyyatda baş verən proseslər fonunda Azərbaycanda əmanətlərin tam sığortalanması ölkəmizdə maliyyə sabitliyi və bank sisteminin dayanıqlılığı üçün əlavə imkan yaradır. Eyni zamanda, əhalinin banklara inamını artıracaqdır. Bütövlükdə, bu qanun layihəsi cəmiyyət tərəfindən çox yüksək səviyyədə qarşılanmışdır. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Çox vacib bir dəyişiklik idi. Əgər başqa bir təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 11-ci məsələsi "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyurun, Hadi Rəcəbli.

**H.Rəcəbli**. Sağ olun, Oqtay müəllim. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin parlamentə ünvanladığı qanun layihələrinin, demək olar ki, hamısı xalqın rifahının yaxşılaşdırılmasına, onun güzəranının daha da çiçəklənməsinə xidmət edir. Belə layihələrdən biri də bu günlərdə parlamentə daxil olub və fevralın 13-də biz həmin layihəni müzakirə etmişik.

Oqtay müəllim, mən demək istəyirəm ki, veteranlar birliyinin, həmkarlar birliyinin fəalları, bizim digər pensiyaçı əhali bu layihənin, həqiqətən, sözün tam mənasında böyük maliyyə tutumlu olduğunu qeyd edib və geniş mənada bizim aztəminatlı ailələrin güzəranının yaxşılaşmasına xidmət edəcəyini vurğulayıblar.

Mən layihə ilə deputat həmkarlarımı bir daha tanış etmək istəyirəm. Bu layihədə "Əmək pensiyaları haqqında" Qanunun 6.1-ci maddəsinə dəyişiklik edilib. Bu dəyişiklikdə həmin məbləğ birbaşa göstərilib, yəni 2019-cu il mart ayının 1-dən minimum pensiyanın məbləği 160 manat hesablanır. Digər kiçik dəyişikliklər, əslində, texniki xarakter daşıyır. Əsas dəyişiklik məhz 6.1-ci maddədir.

Artıq bir neçə gündür, mətbuatda gedir və mən bir daha vurğulamaq istəyirəm ki, mətbuat orqanları, kütləvi informasiya vasitələri bu rəqəmləri təbliğ edirlər və cəmiyyətə bu rəqəmlərin əhəmiyyətini bir daha göstərirlər. Mən də bir neçə rəqəmi yada salmaq istəyirəm. Azərbaycanda pensiyanın minimum həcmi 116 manat idi. Amma bizim böyük bir qrup, hətta 80 manat, 80 manatdan aşağı müavinət, pensiya alan adamlarımız da var idi.

Ümumilikdə, bu, 233 min nəfərin pensiyasında hiss olunan dəyişikliyə gətirib çıxaracaqdır. 9 min nəfərin pensiyası demək olar ki, iki dəfə, 26 min nəfərin pensiyası 30 faiz artır və beləliklə, bütövlükdə bizim böyük bir qrup

pensiyaçının pensiyası təxminən 38,5 faiz civarında artır. Bu məqsədlə bu il 41 milyon manat vəsait nəzərdə tutulub. Gələn il üçün isə bu vəsait 49 milyon manat təşkil edəcəkdir.

Mən, Oqtay müəllim, bir məsələni də yada salmaq istəyirəm. Belə addımlar vaxtaşırı atılır. Mən istəyirəm deputat həmkarlımızın bir də yadına salam ki, bu göstəricilər, 38,5 faizlə olan artım, həqiqətən, hiss olunan artımdır və bunu yerlərdə təbliğ edərkən, çatdırarkən bu rəqəmlərdən istifadə eləməliyik. Mən yada salmaq istəyirəm, dünən möhtərəm Prezidentimiz Sumqayıtda əhali ilə keçirdiyi görüşlərdə də bir daha səsləndirdi ki, bu islahatlar, dəyişikliklər, artımlar son deyil, davam edəcək. Mən də bu arzunu, möhtərəm Prezidentimizin istəyi ilə deputat həmkarlarımı bu layihəyə səs verməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Hörmətli Sədr, hörmətli millət vəkilləri. Ölkə Prezidentinin minimum əmək haqqının, eyni zamanda, buna müvafiq olaraq əmək pensiyalarının artırılması, 160 manata çatdırılması ilə bağlı atdığı addım cəmiyyətdə böyük təqdirlə qarşılanır və xeyli insanın həyat səviyyəsinə təsir edəcək mahiyyətdədir. Təbii ki, bu addımları hamımız təbliğ eləməliyik, dövlət başçısı səviyyəsində vətəndaşların rifahının yüksəlməsi istiqamətində ciddi işlər görülür. Amma dövlət başçısı dünən Sumqayıtda SOCAR-ın özəl sektorla birlikdə yaratdığı yeni bir nəhəngin, “SOCAR Polyimer”in açılışında iştirakı ilə həm də göstərdi ki, yeni iş yerlərinin açılışı üçün də böyük işlər görür. Ancaq sanki, Azərbaycanda hansısa əllər görülən bu böyük işlərin aşağıda, cəmiyyətin rifahının qaldırılması istiqamətində genişlənməsinə mane olur.

Mən nəyi göstərmək istəyirəm? Dövlətdən əmək haqqı ilə, başqa məsələlərlə bağlı bu qədər asılı insanların ol-

ması yaxşı hal deyil. Hamımız bilirik, indiki vəziyyətdə özəl sektor o səviyyədə inkişaf etməlidir ki, dövlətin yükü kifayət qədər azalsın və dövlət büdcəsindən daha fərqli layihələrə vəsaitlər xərclənsin. Bu günlərdə mən təsadüfən "Tolkuçka" deyilən bir neçə böyük ticarət şəbəkəsində oldum. Orada satıcılarla söhbət elədim. Mən satıcıların acınacaqlı durumuna, həqiqətən, ürək ağrısı ilə baxdım. Böyük əksəriyyətinin alver eləmək, gəlir əldə eləmək imkanı, demək olar ki, ortadan qaldırılıb. Böyük əksəriyyətinin əsas problemi nədir? Vətəndaşlarda pul kütləsi, alıcılıq qabiliyyəti aşağıdır. Bu, bir reallıqdır. Vətəndaşın alıcılıq qabiliyyətini yüksəltmək üçün təcili tədbirlərin görülməsi olduqca vacibdir. Çünki ələbaxımlı vətəndaşın sayını artırmaq dövlət maraqlarımıza uyğun deyil. Bunun üçün də bu günlərdə hörmətli iqtisadiyyat naziri qeyd elədi ki, Milli Məclis tərəfindən Rəqabət Məcəlləsi qəbul olunacaqdır. Bu Məcəlləni təcili qəbul eləmək lazımdır. Azərbaycanda əsas problemlərdən biri haqsız rəqabətlə, inhisarçılıqla bağlı problemdir. Artıq bu inhisarçılığı yavaş-yavaş ortadan qaldırmaq lazımdır. Əlbəttə, bəzi sahələr var ki, burada təbii inhisarçılıq qalmalıdır. Amma digərlərində rəqabət yaratmaq lazımdır ki, təşəbbüskar insanlar pul qazana bilsinlər.

Tikinti sektorunda olan vəziyyət hamımıza bəllidir. Yəni pilot layihələrlə bağlı müəyyən məsələlərin dayandırılması sahibkarları çətin vəziyyətdə qoyur. Adamlar vətəndaşa kirayə pulu verirlər və mənzili vaxtında tikib başa çatdırmadığına görə bir il, iki il də əlavə kirayə pulu ödəməlidirlər. Yəni bunları düşünməliyik və xarici investisiyanın ölkəyə gəlməsi məsələsinə diqqətlə yanaşmalıyıq. Bizdə xeyli turizm obyektləri açıldı. Kimin hesabına açıldı? Öz dövlətimizin büdcədən ayırdığı vəsait hesabına

açılır. Amma xarici sərmayəçilər Gürcüstana bu vəsaiti niyə qoyurlar? Ona görə ki, Gürcüstanda buna qədər artıq məhkəmə sistemini  doğru islahatla qaydaya sala bildilər, hüquq mühafizə orqanlarının biznesə müdaxiləsinin qarşısını aldılar. Rusiyada, başqa ölkələrdə, Avropada olan yüzlərlə azərbaycanlı xaricdən gəlib artıq ölkəyə vəsait qoya bilər. Yəni bu maneələri ortadan qaldırmaq lazımdır.

Bu baxımdan, hesab edirəm, pensiyalar nə qədər artırsa, aztəminatlı ailələr üçün bir o qədər faydalıdır, yaxşıdır, ən azı onların minimum yaşayış tələbatını həyata keçirməyə kömək göstərir. Amma digər tərəfdən, biz yolu açmalıyıq. Yolu açmasaq, vaxtı ilə bizdən də sabit olan ölkələr var idi, bu kiçik problemləri vaxtında həll edə bilmədiklərinə görə böyük problemlər yaşadılar. Şükür Allaha, Azərbaycanda sabitlikdir, xüsusi təlatüm yaşamayan bir ölkəyik. Amma bizdən asılı olmayan səbəblərdən elə şeylər baş verə bilər, əhalinin bu narazılığından istifadə eləməyə çalışan başqa qüvvələr ölkə üçün problem yarada birlər. Ona görə mən təklif edirəm ki, biz Rəqabət Məcəlləsini vaxtında, gecikmədən qəbul eləyək. Bunun nəzarət mexanizmini gücləndirək, bəzi sahələrdə insanların hansısa bir inhisarla qarşılaşmasının qarşısını alaq. Ölkə Prezidentinə dərhal bu neqativ hallarla bağlı məlumat verən mexanizm yaradılsın ki, hansı sahibkarın, hansı sərmayəçinin hüququ harada pozulursa, orada  dərhal o maneəni aradan qaldıran mexanizm işləsin, ölkəyə kapital cəlb eləyə bilək, vətəndaşın alıcılıq qabiliyyəti güclənsin. Mənzil də ala bilmirlər, mənzillərin böyük əksəriyyəti satılmır, ticarət şəbəkələri çöküb və bunun qarşısının alınmasının yollarını təcili tapmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov.

**A.Badamov.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr,

çıxışımın məqsədi təqdim olunmuş "Əmək pensiyaları haqqında" Qanuna edilən dəyişikliyi dəstəkləməkdir.

Əziz həmkarlar, cənab Prezidentin son bir ay ərzində imzaladığı sərəncamlara diqqət yetirsək, görürük ki, artıq ölkəmizdə aparılan islahatlar yeni mərhələyə qədəm qoymuşdur. Yəni ölkə başçısının imzaladığı son sərəncamlar əhalinin aztəminatlı təbəqəsinin rifahının yaxşılaşdırılmasına xidmət edən addımlardır və xalq tərəfindən böyük rəğbətlə qarşılanmaqla dövlətə inamı daha da artırmışdır. Təbii ki, dövlət siyasətimizin təməlində Azərbaycan vətəndaşı durur. Şəhid ailələrinə 11 min manat birdəfəlik ödəmənin həyata keçirilməsi və verilən aylıq təqaüdün 300 manata, minimum əmək haqqının 180 manata çatdırılması, tələbələrin təqaüdlərinə yeni yanaşmanın ortaya qoyulması və artırılması, indi də müzakirə etdiyimiz qanunla əmək pensiyalarının 116 manatdan 160 manata çatdırılmasının nəzərdə tutulması ölkədə aparılan islahatların və dövlət siyasətimizin birbaşa insanların sosial rifahının yüksəldilməsinə xidmət etdiyini göstərir.

Nəzərdə tutulan artımlar, ödəmələr dövlət büdcəsinə təxminən 600 milyon manata qədər əlavə yük yaradacaqdır. Amma ölkəmizdə təmin olunmuş siyasi sabitlik, son illərdə əldə etdiyimiz iqtisadi uğurlar və maliyyə imkanlarımızın genişlənməsi təbii ki, belə sosial layihələrin uğurla icra edilməsinə və davamlı olmasına yeni imkanlar yaradır. Müzakirə etdiyimiz "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliyin qəbul olunması ölkədə 232 min insanın həyat şəraitinə birbaşa öz təsirini göstərəcəkdir. Ən aşağı pensiya həddinin 160 manat müəyyən olunması, əlilliyə görə 80 manat pensiya alanların da, ümumiyyətlə, 160 manatdan aşağı pensiya alanların sosial vəziyyətini kifayət qədər yaxşılaşdıracaqdır. Bu, ölkədə orta aylıq

əmək pensiyasının və yaşa görə orta aylıq pensiyaların da artmasına öz təsirini göstərəcəkdir. Mən hesab edirəm ki, qanun layihəsi vaxtında hazırlanmışdır, cənab Prezidentin rəhbərliyi altında ölkəmizdə aparılan sosial siyasətə tam uyğundur və dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sədaqət Vəliyeva.

**S.Vəliyeva**. Oqtay müəllim, söz verdiyiniz üçün təşəkkür edirəm. Əziz həmkarlar, qeyd etmək istəyirəm ki, Azərbaycanda insanların sosial rifah halının yüksəldilməsi, onların yaşayış səviyyəsinin daim yaxşılaşdırılması məsələləri dövlətin prioritetidir. Elə cənab Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər bir daha göstərir ki, Azərbaycanda həyata keçirilən sosial siyasət sistemi düşünülmüş kompleks tədbirlərdən ibarətdir. Məhz cənab Prezidentin müvafiq sərəncamları və fərmanları ilə minimum əmək haqqının, tələbələrin təqaüdlərinin, Prezident təqaüdünün miqdarının artırılması, şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsi və sair həmin tədbirlərin, atılan addımların tərkib hissəsidir. Həmçinin bu gün müzakirəyə çıxarılan "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində minimum əmək pensiyalarının artırılmasının nəzərdə tutulması, dövlətin sosial siyasətinin əyani təzahürüdür. Minimum əmək pensiyalarının 45 faiz qaldırılmasını həm də dövlətin vətəndaşlara olan diqqət və qayğısı kimi qiymətləndirmək mümkündür.

Mən bir məsələyə toxunmaq istərdim. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xahiş edərdim ki, 25 il stajı olmayan və 2006-cı ildən sonra işləməyən insanların əmək pensiyalarına baxılması məsələsinə diqqət artırılsın. Son nəticədə işimiz vətəndaş məmnuniyyətini təmin et-

mək olduğundan, bu məsələdə də çevik, operativ olmaq lazımdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli deputatlar, mən də qanun layihəsinə səs verəcəyəm. Doğrudan da, cənab Prezident tərəfindən ardıcıl şəkildə atılan bu addımlar ölkəmizdə rifah halının yüksəlməsinə, vətəndaşlarımızın vəziyyətinin yaxşılaşdrılmasına, pensiyaların, əmək haqlarının artırılmasına, insanların yeni iş yerləri ilə təmin olunmasına xidmət edir.

Amma hörmətli Sədr, mən çıxışımı bir az başqa istiqamətdə qurmaq istəyirəm. Bu çıxışın mahiyyəti nədən ibarətdir? Bəzən görürsünüz ki, bu atılan addımları ayrı-ayrı şəxslər, məkrli niyyətli insanlar öz adlarına çıxmaq istəyirlər. Elə dünən adı bu məclisə layiq olmayan bir insan, – ona görə adını çəkmirəm, – özəl internet kanallarında çıxış edib, ayın 23-ü mitinq təyin eləyib və camaatı mitinqə dəvət edir ki, baxın, biz ayın 19-da mitinq keçirdik, bunun nəticəsində Azərbaycan dövləti pensiyaları, minimum əmək haqqını, şəhid ailələrinə verilən müavinətləri artırdı, o cümlədən digər vəsaitlər artırıldı. Təbii ki, onlar öz düşüncələrinə uyğun fikirləşirlər, həm də xalqı aldatmaq, ondan istifadə üçün bu addımları atırlar. Bilirsiniz ki, cənab Prezident hələ seçildiyi dövrdən, yəni aprel ayından sonra bəyan etmişdi ki, yeni islahatlar həyata keçiriləcək. İstər dövlət strukturlarında, istər əmək haqlarının tənzimlənməsində, istərsə də yeni istehsal müəssisələrinin açılmasında, kənd təsərrüfatının inkişafında, bütün sahələrdə insanların təminatının yaxşılaşdırılması ilə bağlı öz proqramını ortaya qoymuşdu və bu proqram da addım-addım həyata keçirilir.

İkinci bir məsələ. Bu artımlar göydən gəlmir, Məclisdə

hələ dövlət büdcəsi müzakirə olunan vaxt onlar Dövlət büdcəsinə daxil idi. Mən ictimaiyyəti məlumatlandırmaq üçün bunları qeyd etmək istəyirəm ki, biz bunu noyabr ayında Dövlət büdcəsini qəbul edəndə təsdiq etmişik. O mitinqi yanvarın 19-da keçirib. Noyabrda artıq bu məsələ dövlət büdcəsində öz əksini tapmışdı və Milli Məclisdə təsdiq olunaraq, cənab Prezident tərəfindən imzalanmışdı. Bunların, təbii ki, büdcənin icrası fevral ayından başlanır və fevral ayından da bu proseslər həyata keçirilir. Görün, nə qədər ucuz, düşüncəsiz tərzdə insanları yoldan çıxarmaq, özlərinə tərəfdar yığmaq, sosial baza formalaşdırmaq üçün ölkə başçısının atdığı hər addımı artıq öz adlarına çıxırlar. Bu həm onların naşılığıdır, həmçinin düşüncə tərzləridir. Vaxtı ilə onlar büdcəyə süpürgə çəkirdilər, büdcəni talamaqla məşğul idilər. Bu gün dövlət büdcəsi Azərbaycan xalqının maraqlarına xidmət edir və ayrı-ayrı sahələrin, istər dövlət qulluğunda, istərsə də özəl sektorda olanların mənafeyini ifadə edir. Düzdür, biz, özəl sektorun işinə qarışmırıq, amma göstərilən fərmanda qeyd olunur ki, özəl sektor da bu məsələləri nəzərə alsın, orada olan insanların minimum əmək haqqı artırılsın. Yəni bütün sahələr burada nəzərdə tutulubdur və bu qərar verilibdir.

Dünən Sumqayıtda çox böyük bir zavodun açılışı oldu, cənab Prezident iştirak elədi. Ondan qabaq Nizami rayonunda böyük bir zavodun açılışı oldu. Onların hər birində 500-dən yuxarı Azərbaycan vətəndaşının yüksək əmək haqqı ilə işləməsi nəzərdə tutulub. Artıq bu proseslər başlayıb. Yerlərdə emal müəssisələri açılır. Bu emal məsələlərində kənd təsərrüfatı ilə bağlı olan məhsullar emal olunacaqdır. Çox böyük proqramlar var. Dövlət büdcəsinin doldurulması ilə əlaqədar işlər gedir. Vergi, gömrük sahələrində islahatlar gedir. Bu islahatlar hər yerdə

gedir və vətəndaşlar tərəfindən də ciddi şəkildə dəstəklənir. Bu baxımdan, hesab edirəm, hər bir vətəndaşımız bilməlidir ki, atılan hər bir addım cənab Prezident tərəfindən proqramlaşdırılmış 5, 7 illik planların nəticəsidir və addım-addım həyata keçirilir. Kiminsə mitinq, yürüş keçirməsinin nəticəsi deyil. Əksinə, o adamlar istəyir ki, bu layihələr həyata keçməsin. Misal göstərə bilərəm, tutaq ki, bir neçə şəxs törətdikləri cinayətə görə məsuliyyətə cəlb olunublar və hissə-hissə cəzalarını çəkirlər, yaxud törətdikləri əmələ görə peşmançılıqlarını bildirirlər, azad olunurlar. Onların azad olunması həmin qüvvələrə sərf eləmir, deyirlər, biz bu məsələni qaldırdıq, ona görə azad olundular. Bir qıcıq yaratsınlar ki, digərlərinə bu şamil olunmasın. Bu həm xaricdə, həm də daxildə oturanların məkrli niyyətidir ki, o adamların adından, onların bu və ya digər fəaliyyətindən istifadə eləyib öz ətraflarına adam toplasınlar. Təbii, Azərbaycan xalqı bu məsələləri çox gözəl başa düşür, bilir ki, bu gün iqtidar, xalq bir yerdədir. Sumqayıtda, ondan əvvəl Beyləqanda, Gəncədə, Şamaxıda görüşlərdə, Birinci vitse-prezidentin görüşündə və digər görüşlərdə əhalinin münasibəti, – xeyli sadalamaq olar, – bunu aydın göstərir. Demək olar ki, cənab Prezident hər gün regionlarda sadə xalqın içərisindədir, insanların arzu və istəklərini özü birbaşa öyrənərək konkret proqramlarla həyata keçirir. Ona görə də belə adamlar öz məkrli niyyətləri ilə özlərini tarixin arxivinə göndərəcəklər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli media təmsilçiləri. Məndən öncə əmək pensiyaları ilə bağlı söylənən müsbət fikirləri mən də dəstəkləyirəm, onlara qoşuluram. Eyni zamanda, qeyd etmək istəyirəm ki, ölkə Prezidentinin

atmış olduğu bu addım ulu öndərimiz tərəfindən əsası qoyulmuş və xalqın həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən siyasətin növbəti mərhələsidir və onun məntiqinə söykənir. Ölkə Prezidentinin atmış olduğu bu addım bir daha Prezidentin, dövlətin Azərbaycan xalqının yanında olduğunu sübut etdi. Sübut etdi ki, dövlətin imkanları artdıqca aztəminatlı ailələrin həyat səviyyəsinin yüksəldilməsi prosesi davam edəcək və biz bu prosesin, bir daha təkrar edirəm, gələcəkdə də konkret nəticələrini görəcəyik. Eyni zamanda, tələbələrin, doktorantların, magistrlərin təqaüdlərinin artırılması da bir daha sübut edir ki, ölkə Prezidenti aztəminatlı sosial qrupların həyat səviyyəsinin yüksəldilməsini hər zaman diqqət mərkəzində saxlayıb və bundan sonra da saxlayacaqdır.

Heç şübhəsiz, burada söylənildiyi kimi, 2018-ci ilin aprel ayından keçən prezident seçkilərindən sonra Prezidentimizin bütün sahələrdə atmış olduğu addımlar Azərbaycan dövlətinin güclənməsinə, islahatların daha da dərinləşməsinə xidmət edir və bu, sistemli xarakter daşıyır. Bunu istəməyən qüvvələr, – mən Siyavuş müəllimin demiş olduğu sözləri bir az da inkişaf etdirərək qeyd etmək istəyirəm ki, – Azərbaycan gücləndikcə, Azərbaycanın beynəlxalq səviyyədə mövqeyi, qüdrəti və nüfuzu artdıqca, Azərbaycanı istəməyən antiazərbaycan qüvvələr, eyni zamanda, onların içərisində yer alan antimilli qüvvələr anarxist xarakter daşıyan və Prezidentimizin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun söylədiyi kimi, Azərbaycanı xaosa salmaq istəyən bu qüvvələr hədsiz dərəcədə əsəbilik keçirir və çalışırlar ki, hansı yolla olursa-olsun, Azərbaycanda Suriya variantlı xaotik vəziyyət yaratsınlar. Burada hörmətli həmkarım Siyavuş müəllimin söylədiyi kimi, onların fikirlərinin heç bir əsası

yoxdur. Sual olunur, Azərbaycanın bu gün Cənubi Qafqazın lider dövlətinə çevrilməsini təmin edən ölkə Prezidentinin atmış olduğu addımlar sizin hansı mitinqlərdə deyilən tələblərin məntiqi nəticəsi kimi önə çıxıb?

Azərbaycan bu gün dünya miqyasında tanınan ölkələrdən biridir. Azərbaycan bu gün transmilli layihələrin müəllifidir, təşkilatçısıdır, Avropanın enerji təhlükəsizliyini təmin edən bir ölkədir. Azərbaycan bu gün Cənubi Qafqaz qaz dəhlizini ortalığa qoyan, Bakı–Tbilisi–Qars dəmiryolunu çəkib Avropa ilə Asiyanı birləşdirən bir ölkə olaraq bu vəzifələri yerinə yetirərkən, bu addımları atarkən, bu uğurları qazanarkən siz, müxalifət hansı bir səviyyədə özünüzdə güc tapıb dövlətimizin bu addımlarını qeyd etdiniz, onu etiraf etdiniz? Deməli, bunların atmış olduğu addımlar mahiyyət etibarı ilə Azərbaycan dövlətçiliyinin əleyhinə yönələn antimilli xarakter daşıyan anarxist hərəkətlərdir. Onlar, eyni zamanda, bu gün Azərbaycan dövlətinin, Prezidentimizin atmış olduğu addımların Azərbaycan xalqı ilə Azərbaycan dövləti, ölkə Prezidenti arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyini görərək bundan da xeyli dərəcədə əndişələnirlər, bu addımlar onlarda qısqanclıq doğurur. Ona görə də əsəbi bir vəziyyətdə nə dediklərinin fərqinə varmırlar.

Mən tamamilə əminəm ki, ölkə Prezidentinin sistemli xarakter daşıyan bu addımları bundan sonra da ardıcıl xarakter daşıyacaq, dövlətimizin güclənməsinə xidmət edəcək, xalqımızla, Prezidentimizin yüksək səviyyədəki münasibətlərini daha da möhkəmləndirəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, cənab Sədr. Mən də deputat həmkarlarım kimi, “Əmək pensiyaları haqqında” Qanuna edilən dəyişikliyi dəstəkləyirəm. Çox əhəmiyyətli,

diqqəti cəlb edən bir hadisədir və qeyd edim ki, cənab Prezident ilin əvvəlindən başlayaraq əhalinin sosial vəziyyətinin yaxşılaşması ilə bağlı çox əhəmiyyətli addımlar atıb və bu indiyə qədər görülən işlərin həm həcmini, həm də siyasi əhəmiyyətini artırır. Yada salaq ki, minimum əmək haqqının birdən-birə 40 faiz artırılması büdcədə 450 milyon manat pul deməkdir. Şəhid ailələrinə müavinətin ödənilməsi 135 milyon manat pul deməkdir. Hazırda isə minimum pensiyanın artırılması 41 milyon manat pul deməkdir və bu, 600 milyon manat pul edir. Nəzərə alsaq ki, bizim büdcəmiz təqribən 22–23 milyard manatdır, bu, büdcənin 2,5 faizi deməkdir. Yəni bu çox əhəmiyyətli bir rəqəmdir və göründüyü kimi, məbləğin artırılması xaricdən kredit alınması, yaxud da əskinasların çapı yolu ilə həyata keçirilmir. Bu, bazara daxil olacaq 600 milyon pul insanların həyat şəraitini yaxşılaşdıracaq, inflyasiyaya, qiymətlərin artmasına gətirib çıxartmayacaq.

Bütün bu məsələlər diqqətdə, nəzarətdə olan məsələlərdir. Cənab Prezidentin düşünülmüş daxili, xarici siyasəti Azərbaycanın həm nüfuzunun artmasına, həm də əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, büdcənin möhkəmlənməsinə və həcminin artmasına gətirib çıxarır. Xarici ölkələrdə sosial məsələlərin həlli, bir qayda olaraq, çox aşağı bir faizlə və yaxud xaricdən kredit alınması yolu ilə baş verir. Amma Azərbaycan öz gücü hesabına bu məsələləri həll edir. Həll edilən məsələlərin hamısının mərkəzində Azərbaycan vətəndaşı durur və cənab Prezident əhali ilə görüşündə bir qayda olaraq vurğulayır ki, bizim məqsədimiz insanlarımızın daha yaxşı yaşamasıdır.

Mən deputat həmkarım Fazil Mustafanın bir fikrinə münasibət bildirmək istəyirəm. O, pilot layihələrlə bağlı öz narahatlığını bildirdi. Mən bildirim ki, narahatlığa

ehtiyac yoxdur. Bu problem həllini tapacaq, müəyyən texniki məsələlər həll edildikdən sonra bunlar da həllini tapacaq. İnsanlarımızın mənzillə təmin edilməsi üçün hər dəfə yeni yollar axtarırlar, əvvəlki yollar dəstəklənir. Mən yada salım, bir müddət əvvəl vətəndaşların kirayədə yaşadıqları mənzillərdə 25 il ərzində kirayə haqqını ödəməklə ona sahib çıxmaq hüququ təsdiq edildi. Yəni göründüyü kimi, bu məsələlər diqqətdədir.

Eyni zamanda, deputat həmkarım Siyavuş Novruzovun bir fikrini tamamilə dəstəkləyirəm. Bu gün hakimiyyətin uğurlarına həmmüəlliflik etmək istəyənlərin sayı nədənsə çoxalır. Elan edirlər ki, vaxtı ilə biz bunu demişdik, təklif etmişdik. 100 dənə təklif vermək olar, amma o təklifin həyata keçirilməsi üçün ortada proqram, konkret fəaliyyət yoxdursa, o söz olaraq qalacaqdır. Müxalifətdən fərqli olaraq Azərbaycan iqtidarı, şəxsən cənab Prezident verdiyi vədləri yerinə yetirir, problemlərlə bağlı konkret proqramlarımız var, onlar həyata keçirilir. Cənab Prezidentimizin bu gün Azərbaycanın inkişafı ilə bağlı konkret proqramı var, fəaliyyəti var və bu, dəstəklənir. Mən yada salım, bir neçə gün bundan əvvəl Şamaxı bölgəsində zəlzələ olarkən cənab Prezidentin öz iş qrafikini pozaraq bölgəyə getməsi, sadə vətəndaşlarla görüşməsi, Səmayə nənə ilə görüşüb, o barədə öz təəssüratını bölüşməsi vacib məsələdir. Dünyanın harasında var, vətəndaş deyir ki, "Təbii fəlakətdən sonra qapım döyüldü, qapını açdım ki, Prezidentim göz qarşısındadır". Bu, cənab Prezidentin yeganə vətənpərvər addımı deyil. Mən yada salım, Lənkəranda çoxmənzilli bina partlayanda, Şamaxıda sürüşmə olduqda və digər hadisələrdə cənab Prezident həmin an vətəndaşların yanında olur. Onların problemlərini həll etməyə çalışır.

Bu gün kimlərinsə iqtidarın uğurlarına yiyələnmək və

yaxud həmmüəlliflik etməsi uğursuz bir cəhddir. Onlar desə də, deməsə də Azərbaycan iqtidarı, cənab Prezidentimiz ölkənin problemləri ilə məşğuldur və konkret nəticələr var. İnkişaf etmiş ölkələrdən fərqli olaraq Azərbaycanın 20 faiz işğal edilmiş torpağı, 1,2 milyon məcburi köçkünü var. Onların problemləri həll edilməlidir. Əgər bunlar olmasa idi, Azərbaycanın inkişafı bundan da sürətli, bundan da böyük həcmdə ola bilərdi. Qarşıda torpaqlarımızın işğaldan azad edilməsi durur. Düşmənin problemin sülh yolu ilə həlli barədə bəlağətli çıxışları hələ problemin həlli deyil və Azərbaycan bu problemi ancaq özü həll edəcək. Bu baxımdan minimum əmək pensiyasının artırılması ilə bağlı qəbul edəcəyimiz qərar əhəmiyyətli bir hadisədir. Eyni zamanda, qeyd edim ki, nə minimum əmək haqqının, nə də minimum pensiyanın artması ilə bağlı bu, axırıncı rəqəm deyildir. Zaman-zaman büdcəmiz dolduqca, həcmlər artdıqca, iş yerlərinin sayı çoxaldıqca, bu rəqəmləri də biz cənab Prezidentin təqdimatı ilə vaxtaşırı artıracağıq. Azərbaycan vətəndaşı daha da yaxşı yaşamağa başlayacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili. Siyahı getgedə azalmaqdansa, deyəsən, artır.

**T.Mirkişili.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, qeyd edim ki, sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Eyni zamanda, xüsusi xatırladım ki, cənab Prezidentin siyasətinin əsas istiqaməti də məhz sosial siyasətdir. Keçən 15 il ərzində Azərbaycanda yaradılan sosial infrastruktur, eyni zamanda, insanlara sosial qayğı və təminatın artırılması istiqamətində çox böyük işlər görülüb. Düşünürəm, dünyada ikinci belə bir ölkə və dövlət yoxdur ki, vətəndaşın qayğısına bu qədər qalsın, sosial infrastrukturu icra etsin və

ikinci bir Prezident yoxdur ki, bu qədər ölkə vətəndaşının yanında olsun. Dünən cənab Prezidentin Sumqayıta səfərini düşünürəm ki, hər birimiz izlədik. Mən xüsusi qeyd etmək istərdim ki, cənab Prezidentin, eyni zamanda, Sumqayıtda infrastrukturun yaradılması, inkişaf etdirilməsi və sənayenin inkişafı ilə bağlı gördüyü tədbirlər sumqayıtlılar tərəfindən ciddi dəstəklənir. Düşünürəm ki, onun dünən Sumqayıt bulvarında vətəndaşlarla görüşü uzun müddət sumqayıtlıların xatirəsində qalacaqdır.

Cənab Sədr, mən xüsusi xatırlatmaq istərdim ki, biz keçən il dövlət büdcəsini qəbul edəndə, bildiyiniz kimi, 2019-cu ildə pensiyaçılar üçün yaşayış minimumunu 149 manat müəyyən etmişdik. Əgər biz minimum əmək haqqına baxsaq, cənab Prezidentin tapşırığı ilə minimum əmək haqqının həddi 130 manatdan 180 manata çatdırıldı, yəni yaşayış minimumu ilə bərabərləşdi, amma biz pensiyalarda bundan daha yüksək həddin olmasını müşahidə edirik. Yəni yaşayış minimumu 149 manat olsa da, pensiyaçılar üçün pensiya təminatının 116 manatdan 160 manata qaldırılması, əslində, minimum əmək pensiyalarının yaşayış minimumundan daha 7 faiz üstün müəyyən edilməsi deməkdir. Bu, kifayət qədər böyük bir dəyişiklikdir, eyni zamanda, Azərbaycan vətəndaşlarına sosial qayğı üçün çox mühüm bir həddin müəyyən olunmasıdır.

Eyni zamanda, sonda qeyd edim ki, bildiyiniz kimi, bu dəyişikliklərdən sonra Azərbaycan MDB məkanında minimum əmək haqqı, yəni minimum əmək pensiyaları həddinə görə Qazaxıstanla birinci və ikinci yerləri bölüşür. Bu da, əslində, bizim əmək pensiyalarının həddinin qalxmasında insanlar üçün çox böyük bir dəyişikliyin müəyyən edilməsi deməkdir.

Məsələnin sosial tərəfi ilə yanaşı, iqtisadi tərəfi də var.

Ümumiyyətlə, minimum əmək haqlarının və eyni zamanda, minimum əmək pensiyasının qaldırılması ölkə iqtisadiyyatına təxminən 500 milyon manata yaxın əlavə vəsaitin daxil olması deməkdir ki, bu, bütövlükdə iqtisadiyyatın artımıdır. Yeni iş yerlərinin açılması, iqtisadi fəallığın canlanması və bütövlükdə 2019-cu ildə bütün Azərbaycan iqtisadiyyatının artımı vətəndaşın sosial vəziyyətinin daha da yaxşılaşmasını deməyə əsas verir. Mən qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Səttar Möhbalıyev.

**S.Möhbalıyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, mən də "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsini dəstəkləyirəm. Həmkarlar Təşkilatı olaraq, ölkə Prezidentinin insanların sosial rifahının yaxşılaşması haqqında verdiyi bu axırıncı qərarlar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsində müzakirə olunub. Ölkə Prezidenti tərəfindən istər pensiyaların, istər minimum əmək haqqının, istər tələbələrə verilən təqaüdlərin, istərsə də doktoranturada oxuyan, peşə təhsili məktəblərində təhsil alan tələbələrin təqaüdlərinin artırılmasını biz dəstəkləyirik. Müzakirə zamanı Azərbaycan Həmkarlar İttifaqının fəalları çıxış edib və öz münasibətlərini bildiriblər. Ölkə Prezidentinə öz təşəkkürümüzü bildiririk. Ölkə Prezidenti prezident seçilməmişdən öncə çıxışlarında qeyd etmişdir ki, mən çalışacağam, Azərbaycanda bir yoxsul olmasın, Azərbaycan vətəndaşlarının sosial rifahı yüksək səviyyəyə çatdırılsın. Axırıncı fərmanlar və sərəncamlar bir daha onu sübut edir ki, ölkə Prezidenti dediyi sözə əməl edir.

İkinci bir məsələni mən sizin nəzərinizə çatdırıram ki, ölkə Prezidenti elə seçilən dövrdən bu günə qədər

regionların sosial-iqtisadi inkişafı haqqında ardıcıl olaraq dövlət proqramları qəbul edir. Bu dövlət proqramlarının qəbul olunması Azərbaycanda bayaq qeyd etdiyim kimi, yoxsulluğun, işsizliyin aradan qaldırılmasına xidmət edən əsas proqramlardır. Yəni burada yeni iş yerlərinin açılması, o cümlədən bölgələrdə gənclərin iş ilə təmin olunması çox vacib məsələlərdən biridir. Bilirsiniz ki, ölkə Prezidenti bu yaxınlarda Beyləqanda, Gəncədə oldu, dünən Sumqayıtda açılışlarda iştirak etdi. Yəni bu açılışlar Azərbaycan büdcəsinə gələcəkdə yeni-yeni vəsaitlərin daxil olmasına imkan yaradacaqdır.

Mən ikinci bir məsələni qeyd etmək istəyirəm. Ölkə Prezidentinin gördüyü bu işlərin üstündən müxalifət partiyaları tərəfindən, – yəni müxalifət partiyalarının birliyi adından gündə bir təşkilat yaranır, – qara xətlər çəkilir, ağızlarına gələn təhqirləri işlədirlər. Ölkə başçısından tutmuş, bütün məmurların, bütün vəzifə sahiblərinin ailəsi, uşaqları qalmır, hamısını təhqir edirlər. Yəni bu, Azərbaycan xalqına mənsub olmayan insanların dediyi sözlərə bənzəyir. Mən heç düşünmürəm ki, azərbaycanlılar öz xalqı, öz milləti haqqında belə təhqiredici sözlər deyərlər. Mən düşünürəm ki, onların söylədiyi o sözlər, o təhqirlər elə birbaşa öz ailələrinə, özlərinə, orada iştirak edən insanlara aiddir.

Ölkə Prezidenti nə qədər işlər görüb. Hər il yüz minlərlə yeni iş yerləri yaradılır. Yəni ölkə Prezidenti Azərbaycanda misilsiz iqtisadi uğurlara imza atıbdır. Büdcənin vəziyyəti necə idi, ulu öndər Heydər Əliyev ölkə Prezidenti olandan sonra Azərbaycan büdcəsi tədricən inkişaf etdi. İndi 15 milyarddan, 17 milyarddan artıq büdcə formalaşıbdır. Mən burada əyləşən bütün deputat yoldaşlarıma deyirəm, ümumiyyətlə, gərək bunların cavablarını vaxtında verək, görülən

işlər haqqında televiziya, qəzetlər vasitəsi ilə məlumat verək, bəlkə onlar o kor gözlərini açıb, bir daha görərlər ki, Azərbaycan nə qədər sürətlə inkişaf edir. Biz həmkarlar təşkilatı olaraq ölkə Prezidentinin apardığı bu siyasəti dəstəkləyirik və bundan sonra da dəstəkləməkdə davam edəcəyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Təşəkkür edirəm, cənab Sədr. Cənab Prezident tərəfindən bizə əmanətlərin tam sığortalanmasının daha bir il uzadılması ilə bağlı təqdim olunan arayışda qeyd olunur ki, əmanətlərin tam sığortalanması mexanizmi 7 milyon 515 min tələbli və müddətli hesablara malik insanı əhatə edəcək. Yəni, görün, nə qədər insanı əhatə edə biləcək bir layihə bizə təqdim olunmuşdur və belə hesab edirəm ki, 10 milyonluq Azərbaycan üçün 7 milyondan artıq insanı əhatə edə biləcək bir qərar, təbii, alqışlanmalıdır. Əmanətlərin tam sığortalanması və cənab Prezident tərəfindən aparılan digər uğurlu iqtisadi islahatlar hesabına banklardan fiziki şəxslərin depozitləri ötən illə müqayisədə xeyli artmışdır və belə hesab edirəm ki, bu da elə qeyd etdiyimiz uğurlu iqtisadi siyasətin tərkib hissəsidir. Bu siyasətin nəticəsində bank əmanətçilərinin marağı qorunmaqla, həm də potensial əmanətçilər üçün bir təşfiq mexanizmi yaradılmışdır. Haqlı olaraq təkcə əmanətçilərin deyil, eyni zamanda, bankların marağına uyğun bir qərarın ortaya qoyulması həm vətəndaşların, həm də fəaliyyət göstərən bankların birgə marağı ilə bərabər, Azərbaycan əhalisini özündə birləşdirən və sabitlik şəraitində əmanətin cəlb edilməsini təmin edən məqamlardan biridir.

Yeri gəlmişkən, mən bir şeyi də qeyd etmək istəyirəm. Çox yaxşı olar ki, bu islahatların tərkib hissəsi olaraq banklarda vətəndaşlara veriləcək kreditlərin faiz dərəcələ-

rinə də yaxın zamanlarda bir diqqət yetirilsin. Bu faiz dərəcələri aşağı salınmalıdır. Çünki bu dərəcələrlə insanlara verilən kreditlərin alınmasından sonra vətəndaşlar tərəfindən çox böyük çətinliklərlə üzləşmə halları olur. Hətta bu kreditlərin qaytarılmasında problemlər yaranır. Ona görə çox istərdim ki, yaxın gələcəkdə ölkə vətəndaşlarına veriləcək kreditlərin faiz dərəcəsi xeyli aşağı salınmış olsun.

Bir şeyi qeyd etmək istəyirəm. Bu layihə, yəni əmanətlərin tam sığortalanması dünyada rast gəlinən nadir hallardan biridir. Biz arayışda gördük ki, başqa dövlətlərdə konkret rəqəmlər qoyulub. Hətta Amerika Birləşmiş Ştatlarından, Kanadadan tutmuş, Avropa və keçmiş sovet ölkələrində də konkret rəqəmlər qoyulsa da, Azərbaycanda cənab Prezidentin təqdim etdiyi layihədə əmanətlər tam şəkildə sığortalanmaqla, bütün sahədə əhalinin maraqlarını ən yüksək səviyyədə özündə ehtiva edən və qoruyan qanun layihələrindən birinə çevrilir.

Minimum əmək haqqının artırılması ilə bağlı da bir-iki cümlə demək istəyirəm. Bu, 600 min nəfəri əhatə edən bir qərardır. Bir şey yadıma düşdü. Gürcüstanda seçkilərdən bir ay, yarım ay öncə hakim partiya kredit borcu olan 600 min şəxsin kreditinin bağlanması ilə bağlı addım atdı. Sonra Avropa Şurası tərəfindən tənqid olundu ki, bu, seçkiqabağı seçiciləri ələ almaq üçün atılan addımlardan biridir. Daha dəqiq yanaşma olsa, bəli, belə qiymət vermək mümkündür. Amma bizdə baxın, görün vəziyyət necədir? Cənab Prezident seçkiləri udduqdan sonra 1 il ərzində çoxsaylı islahatlar aparır və elə bizdə də 600 min vətəndaşın faydalana biləcəyi minimum əmək haqqının artırılması qərarı seçkilərdən əvvəl deyil, seçkilərdən sonraya təsadüf edir. Bu, o deməkdir ki, cənab Prezident istər seçkidən əvvəl, istərsə də seçkidən sonrakı dövrlərdə insanların sosial problemlərinin həlli, on-

ların əmək haqqının artırılması və digər məsələlərdə daim ardıcıl siyasət aparır. Bu siyasətin də hesab edirəm, ölkədə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsiri olacaqdır.

Oqtay müəllim, icazə versəniz, sonda bir neçə məsələyə də münasibət bildirərdim. Burada müxalif meyilli insanların çağırışları, onların son zamanlar fəallaşması ilə bağlı fikirlər söylənildi. Mən də bunlara qoşuluram və belə hesab edirəm ki, görünür, Qərbdə bəzi daydayların cibləri yavaş-yavaş açılır və bundan da ilhamlanan insanlar ölkədəki indiki sabitliyi başqa cür yozmaq istəyirlər. Ancaq mən başqa məsələyə toxunmaq istəyirəm. Son dövrlərdə cənab Prezidentin birbaşa tapşırığı ilə ölkədə müxtəlif qurumlarda islahatlar gedir. Bu islahatların içərisində vergi orqanlarında aparılan islahatları və qəbul etdiyimiz qanunları qeyd edə bilərəm. Dövlət Gömrük Komitəsində şəffaflıqla bağlı aparılan islahatlar və elə bu islahatların nəticəsi olaraq büdcəyə 1 ildə 1,2 milyard əlavə vəsaitin, yəni ötən illə müqayisədə əlavə 1,2 milyard manat pulun daxil olması çox sevindirici və təqdirəlayiq haldır.

Qida Təhlükəsizliyi Agentliyinin bizim xalqımızı, – mən əvvəllər də çıxış etmişəm, – əhalimizi keyfiyyətsiz, yararsız qida məhsullarından xilas etmək üçün apardığı islahatlar təkcə ayrı-ayrı müxalif qüvvələri deyil, eyni zamanda, mafioz qüvvələri də narahat etməyə başlayıb. Məsələn, Qida Təhlükəsizliyi Agentliyi, onun rəhbərliyi ilə bağlı son zamanlar mətbuatda gedən yazıları araşdırsaq, məlum olur ki, bunun arxasında leş mafiyası durur. O mafiya ki, uzun illərdir yararsız və keyfiyyətsiz əti və digər məhsulları öz vətəndaşlarımıza sırımaqla məşğuldur. Eyni zamanda, bayaq qeyd etdiyim kimi, digər qurumlarda da gedən islahatlara, şəffaflığa, jurnalistlərlə

mütəmadi görüşlərə, açıq qapıların keçirilməsinə, yaşıl dəhlizin yaradılmasına baxmayaraq, yenə də mətbuatda ayrı-ayrı yazılara rast gəlirik. Mən mətbuatdan olan dostlarımıza müraciət etmək istəyirəm. Bu cür yazıların yazılması zamanı diqqətli olsunlar. Aparılan islahatlara, bizim hər birimizin evinə, ailəsinə təsir edən bu islahatlara kölgə salınan yazılardan çəkinsinlər. Çünki bu cür yazıların arxasında müəyyən mafioz qüvvələr və onların maddi maraqları durur. Bizim marağımız isə ümumxalq marağıdır və bu istiqamətdə də mən jurnalist dostlarımdan xahiş etmək istərdim ki, belə yazılardan çəkinsinlər. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Çingiz müəllim. Yaxşı çıxış edirdiniz deyə sözünüzü kəsmədim. Biz "Əmək pensiyaları haqqında" Qanuna baxırdıq, sən əmanətlərin sığortalanmasına keçdin. Fikrini söylədin, amma əmək pensiyaları haqqında fikrini demədin. Sahib Alıyev.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, dəyərli həmkarlar! Mən də "Əmək pensiyaları haqqında" Qanuna edilən dəyişikliyə səs verəcəyəm və onu çox yüksək qiymətləndirirəm. Bu da son dövrlərdə ölkəmizdə eyni məqsədlərə doğru atılan addımların növbəti mərhələsidir, davamıdır. Bütün bu addımlar ondan xəbər verir ki, mən bunu bütün məsuliyyətimlə deyirəm, bu regionda, – Böyük Qafqazı nəzərdə tuturam, – hansısa dövlət əhali baxımından, coğrafi baxımdan Azərbaycandan böyük ola bilər, Rusiya, Türkiyə kimi dövlətdir, hərbi potensialı Azərbaycandan böyük ola bilər, iqtisadi potensialı böyük ola bilər, amma regionda heç bir dövlət Azərbaycandakı qədər yüksək humanizm potensialını özündə daşımır. Bu yüksək humanizm potensialı da birbaşa cənab Prezidentin şəxsiyyəti ilə bağlıdır. Bu addımlardan danışarkən, biz mediadan da oxuyuruq, bu baxımdan bəzən MDB ölkələrinin təcrübəsi əsas gətirilir, tutaq ki, orta

aylıq əmək haqqı Rusiyada, Qazaxıstanda və sair və ilaxır hansı səviyyədədir. Amma tutaq ki, Qazaxıstan Azərbaycan kimi müharibə vəziyyətində deyil. Qazaxıstan öz vəsaitlərinin böyük bir hissəsini Azərbaycan kimi ordu quruculuğuna, müdafiə məsələlərinə sərf etmək məcburiyyəti ilə üz-üzə durmur.

Bir məsələni demək istəyirəm. Bu, təbii ki, Azərbaycanın iqtisadi potensialına dayanan məsələdir. Adicə o tənqidçilər var, tənqid edirlər, onların hakimiyyəti dövründə bütövlükdə Azərbaycanın ixrac potensialı, sadəcə, dünən cənab Prezidentin işə saldığı bir zavodun ixrac potensialı qədər deyildi. Bütün bunlar üçün təbii ki, əvvəlcə böyük addımlar atılıbdır və bunun nəticəsində bu artımlar olubdur. Amma artımların arxasında duran əsas məsələlərdən birinə cənab Prezident özü aydınlıq gətirdi. Real TV-yə verdiyi müsahibədə dedi ki, aparılan islahatlar nəticəsində əvvəlcədən proqnozlaşdırılmamış xeyli vəsait meydana gəldi. Bu vəsaitlərin yönəldilməsi ilə bağlı müxtəlif təkliflər oldu. Mən isə dedim ki, bu minimum əmək haqqının artırılmasına, digər ödənişlərə yönəldilməlidir. Yəni bu mesajın arxasında  böyük bir məsələ gizlənir. Bu, ondan ibarətdir ki, sadəcə, söhbət əmək haqlarının, pensiyaların artırılmasından, yaxud başqa ödənişlərdən getmir. Söhbət ondan gedir ki, bütövlükdə cəmiyyətdə şəffaflaşma gedir və bu şəffaflaşmanın nəticəsini hər bir Azərbaycan övladı, hər bir azərbaycanlı, xüsusilə də sosial baxımdan həssas təbəqə öz üzərində daha çox hiss edir.

Məşhur bir deyim var. “Mən fransız dövlətini qurdum, indi də fransız xalqını qururam”. Sözün həqiqi mənasında, hazırda Azərbaycanda yeni cəmiyyət quruculuğu prosesi gedir və bu proses çox uğurla aparılır, amma bir daha görürük ki, burada da səsləndirildi, bu proseslərin bu dərəcədə uğurla aparılması müəyyən qüvvələri qıcıqlan-

dırır. Ona görə də buradakı əlaltılarını işə salırlar. O qüvvələr ki, deyirlər, onların, belə deyək, keçirdikləri mitinqlərin nəticəsində bu addımlar atılıb. Təbii ki, cavablar verilib. Bir anlığa, hətta düşünək ki, onlar bir neçə min adam artıq toplamaqla hakimiyyət hansısa addımlar atır. Bəs onda onlar hakimiyyətdən niyə örnək götürmürlər? Neçə illərdir deyilir ki, demaqogiyadan əl çəkin, siz ortaya bir proqram, inkişafla bağlı hansısa bir konsepsiya qoyun. Hanı o proqram, hanı o konsepsiya? Neçə dəfə deyilir ki, müxalifət özü öz arasında birləşə bilmir. Birləşmələri, Prezidentin İctimai məsələlər üzrə köməkçisi Əli Həsənovun bu yaxınlarda qeyd etdiyi kimi, ancaq mövsümü xarakter daşıyır. Yaxşı, siz niyə biləşmirsiz? Neçə dəfə deyilir ki, müxalifət hakimiyyətə qarşı müxalifətdə olmalıdır, dövlətə qarşı yox. Amma siz 5-ci kolon vəzifəsini yerinə yetirirsiniz. Yaxşı, bu mərəzdən niyə əl çəkmirsiniz? Bir halda deyirsiniz ki, deyilən şeydən, yaxşı məsələlərdən nəticə çıxaraq, bu nəticəni siz özünüz niyə çıxarmırsınız, ancaq demaqogiya ilə məşğul olursunuz. Bu, bir daha göstərir ki, bütün bunların dedikləri demaqogiyadır və artıq o səviyyəyə gəlib çıxıblar ki, onların liderləri, tribunları rolunda əxlaqa, mənəviyyata zidd hərəkətlər edən, ancaq söyüş söyməkdən başqa heç nəyi bacarmayanlar çıxış edirlər. Sadəcə, onu demək istəyirəm ki, yazıqlar olsun.

Sonda bir məsələni də diqqətə çatdırmaq istəyirəm. Cənab Prezidentin bir fikri var, deyir ki, Prezident nə vaxt sevinir? O vaxt sevinir ki, onun xalqı sevinir. Mən bu fikirdəyəm ki, cənab Prezident bundan sonra da daim bu xalqı sevindirəcək və özü də sevinəcək. Ona bu yolda uğurlar arzulayıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 11-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 12-ci məsələsi. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Layihəyə əsasən bu Məcəllənin 253-1.1-ci maddəsi, yəni yaşıllıqların kadastrlarının aparılmasına münasibətdə və yaşıllıqların kadastr məlumatlarının təhrif edilməsinə münasibətdə maddələri üzrə işlərin icraatının aparılması haqqında qərarın prokurorluq tərəfindən qəbul edilməsi təklif olunur. Bildiyiniz kimi, 64-cü maddə inzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətidir. Bu məsələlərin əhəmiyyətini nəzərə alaraq, adiyyəti üzrə məhz prokurorluq orqanlarına verilir. Millət vəkillərindən səs vermələri xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 13-cü məsələsi. “Üzümçülük və şərabçılıq haqqında” Qanunda dəyişikliklər edilməsi barədə. Buyursun, Eldar İbrahimov.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım! Üzümçülük və şərabçılıq haqqında” Qanunun 14.16-cı maddəsinin ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözlərinin “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilməsi təklif olunur. Bu dəyişiklik Azərbaycan Respublikası Prezidentinin “Patent haqqında” Qanunda dəyişiklik edilməsi barədə” 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli Fərmanın icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Hörmətli həmkarlarımdan, xahiş edirəm, bu dəyişikliyə səs verəsiniz.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

14-cü məsələ. “Azərbaycan Respublikasında dövlət dili haqqında” və “Reklam haqqında” qanunlarda dəyişiklik edilməsi barədə. Buyursun Rafael Hüseynov.

**R.Hüseynov.** Hörmətli millət vəkilləri, bilirsiniz ki, cənab Prezidentin 2018-ci il aprel ayının 20-də imzaladığı sərəncamla Müəllif Hüquqları Agentliyi ilə Patent və Əmtəə Nişanları Mərkəzi birləşdirildi. Nəticədə Əqli Mülkiyyət Agentliyi yaradıldı. Həmin sərəncamdan irəli gələrək struktur dəyişikliyi aparıldı, Patent və Əmtəə Nişanları Mərkəzinin səlahiyyətləri Əqli Mülkiyyət Agentliyinə şamil edildi. Bununla əlaqədar "Azərbaycan Respublikasında dövlət dili haqqında", eləcə də "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər təklif olunur. Bu dəyişikliklər ilə hər iki qanunun müvafiq maddələrində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilir. Rica edirəm ki, dəstək verəsiniz.

**Sədrlik edən.** Buyursun Əflatun Amaşov.

**Ə.Amaşov.** Təşəkkür edirəm, hörmətli cənab Sədr. Hörmətli deputatlar, əziz mediya nümayəndələri! Ümumiyyətlə, reklamlarda dövlət dili işlənməsi məsələsi aktualdır. Bizim edəcəyimiz düzəliş isə əslində, texniki xarakter daşıyır. Amma ümumən durum ciddidir. Çünki bu sahədə vəziyyət, həqiqətən, bərbaddır. Hər birimiz küçələrdə reklam lövhələri və elektron reklam çarxları ilə üzləşirik. Görürük ki, əksər hallarda oradakı mətnlər dövlət dilinin tələblərinə cavab vermir. Dildən istifadə qaydaları kobud şəkildə pozulur. Bəzən onu da görürük ki, xarici dildə olan mətnlər böyük hərflərlə verildiyi halda dilimizdəki mətnlər kiçik hərflərlə gedir. Bəzi məqamlar heç görünmür. Bu, qanunlarımıza zidd olması ilə yanaşı, əlbəttə, dilimizə açıq hörmətsizlikdir. Bununla, eyni zamanda, ölkəmizə gələn xaricilərdə özümüz barədə mənfi rəylə formalaşdırırıq.

Nəzərə alaq ki, ana dilimiz dövlətimizin rəmzidir,

dövlət müstəqilliyimizə münasibətimizin göstəricisidir. Həm dövlət dili, həm də “Reklam haqqında” qanunlardakı dəyişiklik qanunların icrasına məsuliyyət məsələsini də ön plana çəkməlidir. Bizim üçün vacib olan məhz budur. İnanmaq istərdim ki, əlaqədar qurum bu məsuliyyəti dərk edəcək və öz fəaliyyətini buna uyğun quracaqdır.

Bu gün müzakirə edəcəyimiz digər 2 məsələdə də reklamlardan bəhs olunur. 17-ci məsələdə söhbət reklamların yerləşdirilməsinin qaydalarından, icazə ilə bağlı şərtlərin sadələşdirilməsindən gedir. 18-ci məsələdə isə açıq məkanda reklam dairəsinin müəyyən edilməsi və reklam qurğularının tikilməsində...

**Sədrlik edən.** Əflatun müəllim, mən üzr istəyirəm. 17-ci və 18-ci məsələlər sonradır. Biz indi texniki dəyişikliyi müzakirə edirik. Biz “Reklam haqqında” Qanunu müzakirə etmirik. Xahiş edirəm, bir az diqqətli olaq.

**Ə.Amaşov.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən fikrimi yekunlaşdırıram. O qanun layihələrinə də biz səs verəcəyik. Ancaq ana dilimizə hörmət məsələsi vacib məsələdir. Bunları nəzərinizə çatdırmaq üçün qiymətli vaxtınızı aldım. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 14-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---:|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 15-ci məsələsi də ikinci oxunuşdur. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputatlar! Bildiyiniz kimi, 2018-ci il iyun ayının 29-da biz "Azərbaycan Respublikasında dövlət dastiloskopik və genom qeydiyyatı haqqında" Qanun qəbul etdik. Həmin qanunun tələblərindən irəli gələn məsələlərlə bağlı sizin müzakirənizə çıxan qanunlarda dəyişiklik edilir. Söhbət nədən gedir? "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsində söhbət ondan gedir ki, həqiqi xidmətə çağırılmış Azərbaycan Respublikası vətəndaşları məcburi dastiloskopik qeydiyyatdan keçməlidirlər. Digər qanunlarda, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanunda məhkumlarla bağlı nəzərdə tutulur ki, həmin şəxslər məcburi dastiloskopik və genom qeydiyyatından keçməlidirlər. Bilirsiniz, bu da tamamilə təbiidir. Çünki bu qanunun tələbindən irəli gəlir ki, bu qəbildən olan şəxslər məcburi bu qeydiyyatdan keçməlidirlər. Amma bunun könüllü qaydası da var. Könüllü isə, əlbəttə, digər kateqoriya vətəndaşlar üçündür. Ona görə, xahiş edirəm, müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Sağ olun, Ziyafət müəllim. Burada iki qanuna və iki məcəlləyə dəyişiklik edilir. İkinci oxunuş-

dur. Ona görə, xahiş edirəm, əsas kimi biz bu qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 16-cı məsələsi. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunda dəyişikliklər edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuş ilə bağlı onu qeyd etmək istəyirəm ki, vəkillik fəaliyyəti haqqında bu qanunun mahiyyəti prosedurların daha da sadələşdirilməsidir. Belə ki, hazırda vəkil olmaq istəyən şəxslər həm yazılı, həm də şifahi müsabiqədən keçirlər. Bu ixtisas imtahanı bundan ibarətdir və təklif olunur ki, yazılı test imtahanından müvəffəqiyyət qazanmayan şəxsə yenidən ixtisas imtahanında iştirak etmək imkanı

yaradılsın. Eyni zamanda, vəkillik fəaliyyətinin dayandırıldığı dövrdə kollegiyanın üzvlük haqqının ödənilməməsi təklif olunur ki, bu da tamamilə ədalətlidir. Birinci oxunuş zamanı yeganə bir sual olmuşdu, yazılı və şifahi test imtahanları ilə bağlı onu cavablandırdıq. Layihənin qəbulu üçün millət vəkillərindən səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Bu məsələ ilə bağlı bir epizodu xatırlatmaq istəyirəm. 1991-ci ildə biz hüquq fakültəsini bitirəndə prokurorluğa, polisə, başqa orqanlara getmək imkanı olmayan tələbələrin hamısına təşkil olunurdu ki, kim istəyir, vəkilliyə gedə bilər. Çünki vəkillik daha sərbəst peşədir və dövlət məmuru deyil, rahatlıqla bu peşədə özünüzü reallaşdıra bilərsiniz.

Biz bu gün vəkilliyi çox ciddi bir dövlət məmuru, yaxud da dövlət vəzifəsi statusunda bir şeyə çevirmək ilə nə əldə edirik? Mən açığı, keçən dəfə də çox hörmət bəslədiyim Əli müəllimin imtahanlar mərhələsi ilə bağlı arqumentlərini dinlədim. Təbii ki, həqiqətən də, yumşaldıcı görünə biləcək müəyyən istiqamət var. Amma vəkilliyə imtahanda bu iki mərhələyə nə ehtiyac var? Vəkilliyə yazılı test imtahanı verirsən, şifahi imtahanda hansı suallar soruşulacaqsa, bəzilərini, vaciblərini bu yazıya salırsan. Uzaqbaşı, şifahi müsahibədə kiminsə nitq qabiliyyəti ortaya çıxa bilər. Ola bilsin ki, 20 nəfərdən birinin nitq qabiliyyəti yaxşı olmaz. Yaxud da hansısa bir keyfiyyəti xoşagələn olmaz. Amma bütövlükdə, bir nəfərə görə yüz nəfərin hüququnu məhdudlaşdırmağa nə ehtiyac var? Məncə, bu 13-cü maddədən 8-ci bəndi, ümumiyyətlə, çıxmaq lazımdır. Vəkilliyi rahatlaşdırmaq lazımdır. Vəkillik nədir? Yaxşı vəkil olmayacaqsansa, insanlar səninlə müqavilə bağlayıb öz məhkəmə prosesinə, yaxud hansısa

hüquqlarının müdafiə olunmasına cəlb etməyəcəklər.

Yəni bu sistemi biz bu qədər çətinləşdirməklə nəyə nail oluruq? Keçən dəfə  də qeyd olundu, dövlət qulluğu üçün imtahan verəndə bir sertifikat 5 illik müddətə nəzərdə tutulur, burada isə bir il müddətinə, əgər keçmədinsə, yenidən bura sənəd verməyi bir il gözləməlisən.

Bu, həm də işsizliklə bağlı problemdir. Deyək ki, yüksək hüquq təhsili olan insanlar prokurorluğa, polisə daxil ola bilmir, hansısa bir sahədə, inzibati orqanlarda işləyə bilmir, heç olmasa, vəkillikdə özünün müəyyən hüquqi qabiliyyətini, imkanlarını, savadını, təcrübəsini artırmaq imkanı əldə eləsin. Düşünəndə, bu cür mürəkkəbləşdirmənin nə xeyri olacağını, açığı, bir az təsəvvür edə bilmirəm. Axı, bizdə say da azdır. Biz nümayəndəliyi ləğv elədik. Əslində, mən bunun da əleyhinə idim. Bunu da yalnış addım hesab edirəm. Çünki bu qədər, yüzlərlə vətəndaşın arasında, ola bilsin, 5–10 dələduzluqla məşğul olan nümayəndə amili var idi və həmin nümayəndəliyin ləğvinə arqument olaraq gətirildi. Amma onlarla insanın ən azı iş yeri idi və vətəndaşların hüquqlarını qorumaqla həm özlərinə pul qazanırdılar, həm də vətəndaşın da öz işindən ayrılmadan hüquqlarının qorunmasını təmin edirdilər.

İndi biz əgər bu vəkilliyi gətirmişiksə, bir ildən çox, il yarım vaxt keçib, biz hələ də vəkilliyə daxil olmanın sadələşdirilməsi ilə vəkillərin sayının genişlənməsinə şərait yaratmaq istəmirik. O baxımdan, mən hesab edirəm, dövlət məmuru üçün bu mərhələlər başa düşüləndir. Dövlət qurumudur, bunun elə funksiyaları var ki, burada adamı seçməliyik. Dövləti təmsil edəcəkdir və onun səviyyəli, hazırlıqlı insan olması vacibdir. Bu vəkillikdə axı, amma hazırlıqsız olacaqsa, nəticəsi nə olacaq? Kimə nə ziyanı dəyəcək? Uzaqbaşı müştərisi olmayacaq. O baxım-

dan da, məncə, bu məsələni bacardıqca sadələşdirməyə ehtiyac var. Biz istəyiriksə, Azərbaycanda, həqiqətən, bu peşənin nüfuzu qalxsın, bayaq qeyd elədiyim məhkəmə islahatını normal keçirmək lazımdır ki, vəkilin şəxsiyyətinə hörmət artsın. Məhkəmədə vəkil heç kimdir. Vəkil hansısa bir prosesi udmaq imkanına malik deyil. Əgər hakimin və yaxud dövlət ittihamçısının iradəsi olmasa, vəkil öz ağlı, məntiqi, savadı ilə heç bir prosesi malik deyil. Bu yolu açmaq lazımdır ki, vəkilliyin prestiji artsın və camaat da bura yönəlsin, həm vətəndaşın hüququnu müdafiə etsin, həm də bu peşə üzrə müxtəlif insanlar iş ilə təmin olunsunlar və gəlir əldə edə bilsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Fazil müəllim, mən Sizinlə bir az razı deyiləm. Vəkilləri biz çox aşağılayırıq. Vəkillər kimə qulluq edir? Əhaliyə. Əhali kimdir? Ölkənin vətəndaşları. Nəyə görə biz onların hüquqlarını azaldırıq? Hər dəfə vəkili prokuror, polislə bərabər götürməliyik. Forma da fikirləşilib. İstəyirik ki, vəkillər savadlı olsunlar. Nəyə görə? Çünki vəkilin savadı yoxdursa, onun müştərisi olmayacaq. Yanaşmanız düzgün deyil. Qoy hazırlaşsınlar. İmtahan verə bilmədi, bir il sonra imtahan versin, verməyibsə, hazırlaşmalıdır. Aytən Mustafazadə.

**A.Mustafazadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Sizinlə tamamilə razıyam. Çünki mən də hesab edirəm ki, vəkillərin bilik səviyyəsi yüksək olmalıdır. Biz kəmiyyəti keyfiyyətə qarşı qoymamalıyıq. Mütləq deyil ki, bizdə minlərlə vəkil olsun, amma onların 800-ü savadsız olsunlar. Mən başa düşürəm ki, ölkədə vəkillərin sayı azdır və bunun üçün birincisi, gərək onların nüfuzunun artması üçün də bilikləri artıq olsun. Mən onu qeyd etmək istəyirəm ki, cənab Prezident tərəfindən imzalanmış 2018-ci il 22 fevral tarixli sərəncamda öz təsbitini tapmış islahatların

bariz nümunəsi olaraq vəkillərin və müraciət edən şəxslərin rahatlığını təmin edən, müasir standartlara cavab verən İKT ilə təchiz olunan bürolar yaradılmışdır. Mövcud sərəncamla ölkədə peşəkar səviyyədə, yüksək keyfiyyətli hüquqi yardıma çatılmasında canlanma baş vermişdir. Ancaq bildirmək lazımdır ki, vəkillərin tam müstəqil, maneəsiz şəkildə hüquqi yardım göstərmələrinə nail olmaq üçün onların səlahiyyətləri daha da genişlənməlidir.

Hazırda respublikada vəkillik institutunun nüfuzunun daha da artırılması ilə əlaqədar gənclərin, yüksək təcrübəli hüquqşünasların vəkilliyə maraqlarının artmasını nəzərə alaraq, hesab edirəm ki, vəkillərin ödədiyi vergilərin faizi aşağı salınmalıdır. Çünki hazırda vəkillər vətəndaşlardan əldə etdikləri gəlirin təxminən 30–40 faizini vergi qismində ödəyirlər. Vəkillərin işini, gərgin əməyini, göstərdikləri xidmət səviyyəsinin maddi təminatlarının yaxşı olmasından da asılılığını nəzərə alaraq, hesab edirəm, ödənilən verginin miqdarı aşağı salınmalı, müəyyən güzəştlər edilməlidir. Bundan əlavə vəkillərin səlahiyyətlərinin genişləndirilməsi üçün prosessual məcəllədə də dəyişikliklər edilməlidir. İbtidai istintaqda müdafiənin düzgün qurulmasında, sübutların toplanmasında, sənədlərin alınmasında vəkillərin müstəqilliyi, səlahiyyətlərinin daha artırılması birbaşa prosessual məcəllədə təsbit edilməlidir. Vəkillərin prosessual hüquqlarının artırılması özlüyündə vətəndaşların peşəkar hüquqi yardım almasına, pozulmuş hüquqlarının bərpa olunmasına xidmət edir. Təşəkkür edirəm. Mən bu qanun layihəsini də dəstəkləyəcəyəm.

**Sədrlik edən.** Əli müəllim, əlavəniz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, onda gündəliyin 16-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 17-ci məsələsi İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Bu da ikinci oxunuşdur. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, Şəhərsalma və Tikinti Məcəlləsinə zamanında dəyişikliklər təklif edilmişdi və həmin dəyişikliklərdən irəli gələrək, prosedur qaydalarının sadələşdirilməsi məqsədi ilə icazə müqaviləsinin ləğv olunması təklif edilir. Buna müvafiq olaraq İnzibati Xətalar Məcəlləsində sizə təqdim edilmiş dəyişiklik təklif olunmuşdur. İkinci oxunuşdadır. Səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, ikinci oxunuşda əsas kimi qəbul olunmasına səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi 17-ci məsələyə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 18-ci məsələsi "Reklam haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Bu da ikinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəqiqləşmə xarakterli dəyişikliklər nəzərdə tutulur. Bunlar açıq məkanda reklam dairəsinin müəyyən olunması, açıq məkanda reklam yerləşdirmək üçün reklam yayıcısının aldığı icazənin müddətinin 1 ildən 3 ilədək artırılması, reklam sahəsində qiymətlərin tənzimlənməsi və sair məsələlərdir. Bu barədə mən məlumat vermişdim.

Komitədə bunu ətraflı müzakirə etdik, bütün bu dəyişikliklər qəbul edildi. Yalnız "Açıq məkanda reklam" adlanan 26-cı maddədə bir bəndlə əlaqədar müəyyən danışıqlıqlar aparılır. Milli Məclisin komitəsi bu qanun layihəsini ikinci oxunuşda bütövlükdə  qəbul etmişdi. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə ikinci oxunuşda müsbət münasibət bildirmələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul olunmasına münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
İndi qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 19-cu məsələsi "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu da ikinci oxunuşdur. Ülvi müəllim, buyurun.

**Ü.Quliyev,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, bildiyiniz kimi, fevral ayının 12-də "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirə olundu və qəbul edildi. Mən fürsətdən istifadə edib, çıxış edən və bizi dəstəkləyən, müsbət rəy bildirmiş və bir sıra təkliflər vermiş

bütün millət vəkillərinə, Elmira Axundovaya, Qüdrət Həsənquliyevə, Tahir Rzayevə, Qənirə Paşayevaya və Cavid Osmanova öz minnətdarlığımı bildirirəm. Bununla yanaşı, biz Gənclər və idman komitəsində keçirilmiş iclasda işçi qaydasında müzakirələr apardıq, ikinci oxunuşda bir çox həmkarlarım fəal iştirak etdilər və dəyərli təkliflər verdilər. Biz bütün bu təklifləri ümumiləşdirərək qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırdıq. Bütövlükdə layihə üzərində aparılan işlərin qısa xülasəsini sizin nəzərinizə çatdırmaq istərdim.

Əsas dəyişikliklər 5-ci maddə, gənclərin mədəni, əxlaq tərbiyəsi və mədəni həyatda iştirakı ilə bağlıdır. 5.7.1-ci maddəyə əsasən 18 yaşınadək gənclərə tütün məmulatları və spirtli içkilərlə yanaşı, alkoqollu və ya energetik içkilərin də satışının qadağan edilməsi nəzərdə tutulurdu. Biz bu maddəni bir qədər də sərtləşdirdik və buraya təkcə alkoqollu deyil, bütün növ energetik içkiləri şamil etdik. Vacib dəyişikliklərdən biri hörmətli vitse-spikerimiz Valeh müəllim Ələsgərovun təklifi ilə 7.2-ci maddə ilə, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı ilə bağlı idi. Bu maddənin 1-ci və 2-ci hissəsində cümlələrin arasında ziddiyyət var idi. Biz 7.2-ci maddəni "Təhsil haqqında" Qanunun 28-ci və "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 12-ci maddələri ilə tam uyğunlaşdırdıq. Burada əsas məsələ dövlət təhsil müəssisələrində təhsil alan gənclərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pulsuz tibbi xidmət göstərilməsindən və müvafiq icra hakimiyyəti orqanlarının təhsil müəssisələrində əyani təhsil alan gənclərin təhsil müəssisələrinin vəsaiti hesabına hər il kompleks tibbi müayinədən keçirilməsinin təmin edilməsindən gedirdi.

Daha bir vacib məsələ 1-ci maddə ilə bağlı idi. Bu mad-

dədə əsas anlayışlar verilmişdir. Biz əsas anlayışlarda 1.0.5-ci maddədə "gənclər təşkilatları anlayışına yaradılan" sözündən sonra "icra orqanlarının üzvlərinin və təsisçilərinin yaşı 35-dən çox olmayan" sözlərini əlavə etdik və bununla da məhdudlaşdırıcı norma yaradıldı. Düşünürəm ki, əsas ümumiləşdirilmiş dəyişikliklər bunlardan ibarətdir.

Hörmətli həmkarlar, ölkəmizdə sağlam gəncliyin formalaşmasında, onların mənəvi, əxlaqi tərbiyəsinin təmin edilməsində və sosial problemlərinin həllində əsaslı dönüşə səbəb ola biləcək və bu sahədə mövcud hüquqi boşluqları aradan qaldıracaq qanun layihəsini ikinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl ikinci oxunuşun tələblərinə uyğun olaraq, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 75 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 76 |
| Nəticə: Yetərsay yoxdur | |

Qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 13.42 dəq.) |
| İştirak edir: | 80 |
| Nəticə: Yetərsay yoxdur | 83 |

Yetərsayda problem var, deyəsən. Qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 13.45 dəq.) |
| İştirak edir: | 80 |
| Yetərsay | 83 |
| Nəticə: Yetərsay yoxdur | |

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yetərsay yoxdur. Xahiş edirəm, səs verəndə bir az diqqətli olaq. Deputat həmkarları dəvət edin.

Səsvermədə diqqətli olaq, buyurun, qeydiyyatdan keçək.

Bir də qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 13.42 dəq.) |
| İştirak edir: | 80 |
| Nəticə: Yetərsayvar | 83 |

Yetərsay var, xahiş edirəm, əsas kimi qəbul olunması üçün qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsinin müzakirəsinə başlayırıq. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri. Bu qanun cəmiyyətin olduqca vacib bir sahəsini əhatə etdiyinə və gənclərlə bağlı problemləri tənzimlədiyinə görə dəstək verəcəyəm. Amma bununla bağlı bir sıra məsələlərə münasibətimi bildirmək istəyirəm.

Birinci növbədə, diqqəti qanunda nəzərdə tutulan "Gənclər evi"nin fəaliyyəti ilə bağlı məsələlərə yönəltmək istəyirəm. İki gün öncə biz Bakıxanov qəsəbəsində "Gənclər evi"ndə legion hərbi vətənpərvərlər klubunun iştirakı ilə təşkil edilən bir tədbirdə iştirak etdik. Demək, "Gənclər evi" çox gözəl bir təşəbbüs göstəribdir. Keçmiş hərbçilərdən ibarət bir vətənpərvərlər klubunun yaratdığı təşkilatla birlikdə könüllü əməkdaşlıq xəttini götürüblər və orta məktəbdən tutmuş, daha yaşlı gəncləri orduya hazırlıq prosesinə cəlb edirlər. Bu prosesdə də qızlar, oğlanlar hərbi vərdişlərə yiyələnirlər. Bu çox sevindirici oldu ki, "Gənclər evi"ndə, həqiqətən də, bir funksional fəaliyyət görmüş olduq. Ona görə də mən istərdim ki, biz gənclər evlərini, sadəcə, bir binadan ibarət görməyək, onun real fəaliyyətini tənzimləyən işlərə cəlb olunması üçün qanunvericilikdə əsaslar hazırlayaq. Necə ki, bu qanunda həmin əsaslar kifayət qədər var idi.

Ötən dəfə burada deputat həmkarım Qüdrət Həsənquliyev çox haqlı olaraq qeyd etdi ki, keçmiş qəzet köşklərində, mağazalarda, başqa yerlərdə spirtli içkilərin və siqaretin reklam olunmasının yeni formasını tapıblar. Heç bir reklam lövhəsi asmadan, şüşənin arxasında siqareti önə çəkərək məhz bu cür təbliğ edirlər. Bildiyiniz kimi, qonşu

Türkiyə tütün məhsulları ilə bağlı sahədə çox böyük irəliləyişlər əldə etdi, hətta o səviyyədə oldu ki, dini zəmində də dəyanət işləri başkanı siqaretin haram sayılması ilə bağlı bir fətva verdi. Bu da müsbət bir addım idi. Hətta bunun əsaslandırılması kimlərəsə bir az qəribə görünsə də, cəmiyyətin bu pis vərdişdən uzaqlaşması üçün hansı vasitələr varsa, – qorxuducu, tərbiyəedici, spirtli içkilərlə və başqa məsələlərlə bağlı, – onlardan istifadə olunması cəmiyyətin ancaq xeyrinə olardı.

Burada bir məsələyə də, Ziyafət müəllim, xüsusi diqqət çəkmək istəyirəm. Dünən mətbuatda, saytlarda oxudum ki, Azərbaycanın bır sıra gənclər təşkilatları ölkə Prezidentinə müraciət ediblər ki, "Gənclər siyasəti haqqında" Qanunda yaş məhdudiyyəti ortadan qaldırılsın. Açığı, mən indiyə qədər bu cür məntiqsiz bir yanaşmanın şahidi olmamışam. Yəni bizdə gənc sayılmağın son yaş həddi 35-dir, əslində, 35 yaşın özü də çoxdur. 27, 28 yaşda gənclər Azərbaycan Cümhuriyyətinin nazirləri, ordu komandirləri olubdur. Yaxud bu dövrdə, 30 yaşa qədər insan öz potensialını istənilən vaxt ortaya qoya bilər. Sadəcə, 35 yaş, əslində, bir az güzəştli variantdır. Güzəşt edilir ki, gənclik dövründə müəyyən proseslərdə iştirak imkanı əldə edə bilməyən şəxslərə müəyyən imtiyazların tanınması baxımından faydalı olsun. İndi bu təklifdən belə çıxır, biz gəncliyə qanunu belə şərh etməliyik ki, "Gənclər siyasəti haqqında" Qanun özünü gənc hesab edən hər bir kəsə şamil olunur. Burada yaş məhdudiyyəti qoymasaq, onda 40, ya 45 yaş yazaq. Yəni bu cür çağırışlar nəyi göstərir?

Bizim gənclər siyasətimiz çox zaman gənc məmurlar yetişdirmək siyasəti kimi anlaşılır. Əslində, biz gənc məmurlar yetişdirməyə çalışmamalıyıq. Biz, əslində, Azərbaycanın gəncliyinin alt qatlarda olan potensialının üzə

çıxması üçün çalışmalıyıq. Bunun üçün də idman, təhsil infrastrukturunu o səviyyədə əlçatan etməliyik ki, gənclər bura meyil etsinlər.

Azərbaycanda pulsuz üzgüçülük hovuzu tapmaq problemdir, ona görə də başqa ölkələrlə müqayisədə hər yay dənizdə batanların sayı kifayət qədər artıq olur. Axı, bu uşaq üzmək bilmir. Deyək ki, Azərbaycanda gimnastika və başqa idman komplekslərində bəzən elə qiymət olur ki, vətəndaş bunu ödəmək imkanına sahib deyil. Amma Rusiya, Avropa ölkələrində idmana meylli uşağı özləri axtarıb tapırlar ki, necə etsinlər, bu uşaq gəlsin, ondan sabah olimpiya ehtiyatı kimi istifadə etsinlər. Ona görə də, – Elmira xanım da keçən dəfə burada olimpiya komplekslərinin qapalı olması, idman qurğularının vəziyyəti ilə bağlı məsələ qaldırdı, – bunları biz düzəltməliyik, inkişaf etdirməliyik. Normal bir basketbol, futbol meydançası, bunların hamısı təmin olunmalıdır. Həyətlərdə o prinsiplərə yenə əməl olunmur. Uşaqların idmanla pulsuz məşğul olması üçün şərait yaratmaq lazımdır. Çünki bu, bizim potensialdır. Ona görə də mən bu məsələdə dəstək verməklə yanaşı, hesab edirəm, elə tələblər qoyulmalıdır ki, bu tələblər təkcə qanunda gəlişi gözəl sözlər kimi qalmasın. Real həyatda biz Azərbaycan insanının sağlam böyüməsinə, inkişafına şərait yaradan infrastruktur qura bilək ki, xüsusilə də bölgələrdə bu infrastrukturdan gənclər istifadə edə bilsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər etiraz etməsəniz, reqlamenti 5 dəqiqə edək. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qəbul olundu. İlham Məmmədov.

**İ.Məmmədov.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım. Çıxışa "Gənclər siya-

səti haqqında” Qanunu müdafiə etmək üçün yazılmışam. Çünki birinci oxunuşda konseptual olaraq müzakirə etdiyimiz qanun layihəsinin bizə təqdim olunan ikinci oxunuşunda xeyli dəyişikliklərin və olduqca mütərəqqi yeniliklərin şahidiyik. Əslində, bu gün dünyada, eləcə də ölkəmizdə baş verən ictimai-siyasi proseslərin önündə məhz gənclik durur. Bilirsiniz, yeni çağırışlar, texnoloji inkişaf, elə gənclərin yeni “Startup” layihələri, bunların hamısı gənclər tərəfindən həyata keçirilir. Ancaq bu gün normativ hüquqi aktların qəbul olunması ilə gənclərin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakına şərait yaratmaq üçün, qanunvericilik bazasının təkmilləşdirilməsi, əlbəttə, çox vacib olardı. Qanun layihəsi ilə tanış olarkən mən o qənaətə gəldim ki, parlamentimizin qəbul etdiyi qanun layihələri içərisində ən mütərəqqi və ən mükəmməl qanun layihələrindən biridir.

Ayrı-ayrı maddələr haqqında təbii ki, burada hörmətli Ülvi müəllim məlumat verdi və mənim də qeyd etmək istədiyim, diqqətimi xüsusi cəlb edən maddə məhz 5-ci maddədir. Gənclərin mənəvi, əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı. Burada gənclərin sağlamlığı, milli-mənəvi dəyərlərə sadiqliyi və bu konteksdə də dövlətçiliyin qorunmasının təbliğ olunması çox önəmli şərtlərdən biridir.

Bu günlərdə möhtərəm cənab Prezidentimiz də elə televiziyadakı çıxışlarından birində qeyd etdi ki, cəmi 27 illik müstəqilliyimiz var. Odur ki, hər bir vətəndaş öz əməyi, dövlətə olan sədaqəti ilə dövlətimizin müstəqilliyini möhkəmləndirməlidir və bu, hər bir vətəndaşımızın borcudur. Təbii ki, bu gün ölkə əhalisinin böyük əksəriyyəti gənclərdən ibarətdir və dövlətimiz də həmişə onların yanındadır, dövlət həmişə xalqının, millətinin, gəncliyin yanındadır. Bunun bariz nümunəsidir ki, bu gün möhtərəm

cənab Prezidentimizin imzası ilə çox böyük imkanlar verən bu qanunun müddəalarında gənclərin sağlamlığı, məşğulluğu, təhsili, sosial vəziyyəti, mənzillə təminatı, demək olar ki, bütün sahələrdə, ölkəmizin ictimai-siyasi həyatında, idarəetmə siyasətində yaxından iştirakı öz əksini tapıbdır.

Burada bir fikir də söyləmək istəyirik. Bu günlərdə möhtərəm cənab Prezidentin verdiyi son fərman və sərəncamlarla Azərbaycan gəncliyindən ibarət olan tələbələrin təqaüdlərinin artırılmasının özü də hansı yollarlasa gəncliyin stimullaşdırılmasına, dövlətə, vətənə sədaqətinin daha da artmasına şərait yaradan amillərdən biridir. Çox təəssüflər ki, keçən əsrin 90-cı illərində biz şahidi olmuşuq, Azərbaycan gəncliyini öz məkrli siyasətlərinin qurbanı etmək istəyirdilər, – hörmətli deputat həmkarlarım burada əvvəlki məsələlərdə də çıxış etdilər, fikirlərini bildirdilər, – "liderciklər" adlanan, tarixin arxivinə atılmış o insanlar bu gün hansı isə bir formada zühur edirlər. Ancaq bu gün nə baş verir? Bu gün Azərbaycan gəncliyi möhtərəm cənab Prezidentin apardığı siyasətdə, ölkəmizin inkişafı naminə gördüyü işlərdə, Azərbaycan dövlətinin idarə olunmasında, onun iqtisadi gücünün, qüdrətinin artmasında iştirak edir. Bax, elə Sumqayıtda son 40 ilin ən böyük neft-sənaye kompleksinin dünənki açılışında qeyd olundu ki, rəhbərlikdən tutmuş ən adi fəhləyədək yeni müasir texnologiyaya əsaslanmış bir zavodun bütün işçiləri Azərbaycan gəncliyi idi. Bu gün Azərbaycanın ev sahibliyi etdiyi bir çox beynəlxalq səviyyəli tədbirlərdə məhz Azərbaycan gəncləri, Azərbaycan könüllüləri iştirak edirlər. Mən bu qanun layihəsinə səs verəcəyəm. Hesab edirəm, Azərbaycan gəncliyinin inkişafına çox böyük bir töhfədir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Eldar Quliyev.

**E.Quliyev.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, gənc nəslin düzgün və müasir tələblərə uyğun yetişdirilməsi hər bir ölkədə olduğu kimi, müstəqil Azərbaycan Respublikası üçün də ən başlıca məsələlərdən biridir. Çünki gənclər cəmiyyətin önündə olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar.

Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial siyasi qüvvəyə çevrilən gənclərimiz müstəqilliyimizin qorunub saxlanmasında, möhkəmləndirilməsində, dövlətçiliyin inkişaf etdirilməsi prosesində yaxından iştirak edərək tarixi nailiyyətlər qazanmışlar. Gənclərin daha yüksək nailiyyətlər əldə etmələrinin stimullaşdırılmasının əsas şərtlərindən biri də müvafiq qanunvericilik bazasının yaradılması və onun hər dəfə yenidən təkmilləşdirilməsidir. Bu məqsədlə 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, ona müasir tələblərə uyğun dəyişikliklər edilmişdir.

Müzakirəyə təqdim edilmiş qanun layihəsi də dünyada gedən qlobal ictimai-siyasi proseslərə uyğun olaraq qanunun təkmilləşdirilməsinə yönəlmişdir. Bu layihədə bir çox önəmli dəyişikliklərin edilməsi nəzərdə tutulur ki, bu da cəmiyyətdə gedən proseslərdən irəli gələn tələblərə tam uyğundur.

Bu dəyişikliklərdən, 1-ci maddədə real həyatda tez-tez rast gəldiklərimiz yeni anlayışların izahının verilməsi, 3-cü maddədə gənclər siyasətinin məqsəd və prinsipləri, 4-cü maddədə gənclər siyasətinin həyata keçirilməsində dövlətin vəzifələri, 5-ci maddədə gəncliyin mənəvi-əxlaqi tərbiyəsi, mədəni həyatda iştirakı məsələlərinin daha geniş və əhatəli əks olunmasını xüsusi qeyd etmək istərdim. Bütün

bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövləti ölkəmizin gələcəyi olan gənclərə yüksək dərəcədə diqqət və qayğı göstərir. Onların təhsili, tərbiyəsi, fiziki və mənəvi, əxlaqi inkişafının, sağlamlığının qorunması üçün lazım gələn bütün tədbirləri həyata keçirir və bu tədbirlərin daim təkmilləşdirilməsi üzərində çalışır.

Bununla yanaşı, qanun layihəsinə bəzi irad və təkliflərimi bildirmək istərdim. 1.0.5-ci maddədə "icra orqanlarının üzvlərinin və təsisçilərinin" sözlərinin, "təsisçilərin və icra orqanlarının üzvlərinin" sözləri ilə əvəz edilməsi daha düzgün olardı. Ona görə ki, təşkilatı təsisçilər yaradır, icra orqanları isə həmin təşkilatın üzvlərini formalaşdırır.

4.0.12-ci maddədə "edilməsi" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hər il müsabiqələrin keçirilməsi, qaliblərin mükafatlandırılması" sözlərinin əlavə edilməsinə ehtiyac duyulur. Belə olan halda, istedadlı və yaradıcı gənclər onların qabiliyyətinin qiymətləndirilməsini yəqin etdikcə, bu sahədə öz nailiyyətlərini inkişaf etdirməkdə maraqda olacaqlar və hər bir gənc üçün bu stimul olacaq. Digər tərəfdən, məlum olur ki, bu, konkret olaraq tədbirlərin həyata keçirilməsini təmin edir. Əks halda isə bu məsələ də sıradan, ünvansız bir tədbir kimi qalacaq və heç bir yükdaşıyıcısı olmayacaqdır. Bu mənada yaxşı olardı ki, 4.1.15-ci maddəsində "dəstəklənməsi" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada stimullaşdırılması" sözləri də əlavə edilərdi.

Hörmətli Ülvi müəllim, layihənin 7.2-ci maddəsində təhsildə tibbi xidmətin göstərilməsi ilə əlaqədar təklifləri qanun layihəsinə dəyişiklikdə nəzərə aldığına görə mən ona minnətdarlığımı bildirirəm və bu maddəni gündəlikdən çıxarıram.

Qanunun 8.1-ci maddəsinin üçüncü abzasında və 8.4-cü maddəsində "hakimiyyət" sözü "hakimiyyət orqanı" sözləri ilə əvəz etdirilməlidir. Çünki "müvafiq icra hakimiyyəti" anlayışı yoxdur, müvafiq icra hakimiyyəti orqanı" anlayışı var və bütün qanunların mətnində, bir qayda olaraq, belə qeyd olunur.

8.2-ci maddədə "əlavə təhsilin artırılması" sözləri "əlavə təhsilin alınması" sözləri ilə əvəz edilməsi cümlənin mahiyyətini düzgün əks etdirər.

Mən bu qanun layihəsinə səs verəcəyəm. Deputat həmkarlarımdan da səs vermələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev.

**B.Əliyev**. Çox sağ olun, Ziyafət müəllim. Mən də deputat həmkarlarımın o fikri ilə razıyam ki, "Gənclər siyasəti haqqında" Qanuna edilmiş dəyişikliklər çox önəmlidir və ciddi şəkildə işlənibdir. Bu günün tələblərinə tamamilə cavab verir. Hesab edirəm ki, bu qanunun qəbul edilməsi gənclər siyasəti sahəsində daha səmərəli işlərin görülməsinə geniş imkan yaradacaqdır.

Mən bir neçə məsələyə diqqəti cəlb etmək istəyirəm. Burada da səsləndi, dövlət tərəfindən gənclərə daim böyük diqqət və qayğı göstərilir və qanunda da nəzərdə tutulur ki, həm tələbələrə, həm gənc təhqiqatçılara, alimlərə daimi dövlət qayğısı göstərilsin və onların fəaliyyəti dəstəklənsin. Bu günlərdə cənab Prezident tərəfindən bir fərman və iki sərəncam imzalanmış, bu sərəncam və fərmanlara uyğun olaraq həm gənc alimlərin, həm də ali təhsil müəssisələrinin, texnikumların və peşə məktəblərin tələbələrinin hamısının təqaüdü artırılmışdır. Bununla bir tərəfdən, onlara dövlət qayğısı, digər tərəfdənsə sosial müdafiələri təmin edilir. Bu, əlbəttə ki, çox böyük bir siyasətdir və dövlətin gənclər üçün göstərdiyi və yaratdığı

şəraitin ən bariz nümunələrindən biridir.

Digər bir məsələ ondan ibarətdir ki, bu gün gənclər arasında ilk növbədə onlar üçün təhsilin əlçatanlığının təmin edilməsi həyata keçirilir. Digər tərəfdən, yeni iş yerlərinin yaradılması və gənclərin işlə təmin edilməsi istiqamətində də böyük işlər görülür. Bu qanuna ediləcək dəyişikliklər də hesab edirəm ki, bu istiqamətdə öz töhfəsini verəcəkdir.

Çox vacib olan məsələlərdən biri, burada qeyd edildiyi kimi, risk qruplarında olan gənclər üçün sosial-psixoloji reabilitasiya kurslarının təmin edilməsi, cəzaçəkmə müəssisəsindən azad edilmiş gənclərin sosial adaptasiya ehtiyacı olarsa, belə mərkəzlərdə yerləşdirilməsinə köməklik göstərməsidir. Mən hesab edirəm ki, burada qanunun 5.6.4-cü maddəsində "cəzaçəkmə müəssisələrindən azad edilmiş sosial adaptasiyaya ehtiyacı olan gənclərin sosial adaptasiya mərkəzlərinə yerləşdirilməsinə kömək göstərilməsi"nin nəzərdə tutulması kifayət deyil. Hesab edirəm ki, bilavasitə bu işdə iştirakçılıq olmalıdır və 5-6.3-cü maddədə qeyd edildiyi kimi, təşkil edilməsi də bura daxil etmək lazımdır. Müvafiq qanun var, o qanuna görə cəzaçəkmə müəssisəsindən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzləri yaradılmalı idi. Yaxşı olardı ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə gənclər siyasətini həyata keçirən Gənclər və İdman Nazirliyi də bu işdə yaxından iştirak etsin, yalnız köməklik göstərməsin. Bir də yaxşı olardı ki, bu mərkəzlər gənclər üçün ayrılıqda nəzərdə tutulsun. Çünki nəzərə alsaq ki, onların zərərli informasiyalardan qorunmasına böyük ehtiyac var və bir çox hallarda yeniyetməlik yaşına çatmayanlar, yaxud da gənclər başqalarının təsiri altında bu cinayətlərə təhrik edilirlər. Bu baxımdan onların reabilitasiya məsələlərində də bu faktlar nəzərə alınmalıdır.

Hesab edirəm, ikinci bir məsələ – informasiya təhlüksiliyinin təmin edilməsində gənclər təşkilatlarının rolunu daha da möhkəmləndirmək üçün bu qanunda nəzərdə tutulan könüllülük məsələsini genişləndirmək və könüllülük hərəkatına yeni bir stimul yaratmaq lazımdır. Könüllülər arasında seçilən, yaradıcılıq imkanları geniş və yaxşı təcrübəsi olan gənclərin fəaliyyətindən digər sahələrdə istifadə olunmasına şərait yaradılmalıdır. Bütövlükdə mən də hesab edirəm ki, bu qanun yaxşı hazırlanıb və deputat həmkarlarımı da ona səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun, Bəxtiyar müəllim. Hörmətli deputatlar, əgər etiraz eləməsəniz, bəlkə tənəffüssüz işləyək. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Davam edirik. Gövhər Baxşəliyeva, buyurun.

**G.Baxşəliyeva**. Çox sağ olun, Ziyafət müəllim. Mən də hesab edirəm, təklif edilən dəyişikliklər çox mühümdür, zəruridir, aktualdır, cari dövrün tələbindən irəli gəlir və təbii ki, bu qanun layihəsinə səs verəcəyəm. Əlavə olunan müddəaların hamısı demək olar ki, çox vacibdir. Gənc nəslin fiziki və mənəvi sağlamlığına xidmət edir. Onların ölkədə, cəmiyyətdə özlərinə layiqli yer tutmalarına, rahat həyatlarının təmin edilməsinə xidmət edir. Mən düşünürəm ki, bu qanunla gənclərin bütün problemlərinin həll edilməsinə şərait yaradılır. Odur ki, mən ilk növbədə qanunun təşəbbüskarına, cənab Prezidentə öz minnətdarlığımı bildirmək istərdim. Həqiqətən də, ölkədə gənclər siyasəti çox yüksək səviyyədə aparılır və gənclərin inkişafı, təminatlı gələcəkləri üçün bütün şərait yaradılır. Mən düşünürəm ki, bu qanun layihəsini qəbul etməklə biz, həqiqətən də, hörmətli Ülvi müəllim dediyi kimi, gənclər

siyasətində əsaslı dönüşə nail olacağıq.

Mənim burada bircə təklifim var. Bu da 5-ci maddəyə aiddir. Əgər mümkünsə, bu, nəzərə alınardı. 5-ci maddə gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı ilə bağlıdır. 5.9-cu maddədə mən bütün müddəanı deyil, yalnız bu hissəsini oxuyuram: "ölkə və dünya tarixi, mədəniyyəti, tarixi şəxsiyyətlər, milli qəhrəmanlar haqqında maariflәndirici layihə və proqramlar, elmi-populyar verilişlər hazırlayıb həyata keçirirlər". Mən diqqətinizə çatdırıram, hörmətli Ziyafət müəllim, düşünürəm ki, burada "mədəniyyət" sözündən sonra "ədəbiyyat" sözünü də əlavə eləməliyik. Çünki ədəbiyyat, xüsusən bədii ədəbiyyat elə bir güclü təsirə malikdir ki, bizim gənclərin o ədəbiyyatla ətraflı şəkildə tanış olmaları onların geniş dünyagörüşünə, kamil, hərtərəfli bir şəxsiyyət kimi yetişmələrinə çox böyük töhfə verər. Deyə bilərlər ki, "ədəbiyyat" məfhumu da mədəniyyətə daxildir. Amma bu, o qədər böyük əhəmiyyətə malikdir ki, xüsusilə də bizim Azərbaycan ədəbiyyatını götürsək, dünyada tək-tük belə zəngin ədəbiyyata, şeirə, poeziyaya malik xalq tapmaq olar. Təsadüfi deyil ki, cənab Prezident məhz 2019-cu ili Azərbaycanın dahi, böyük mütəfəkkir şairi "İmadəddin Nəsimi ili" elan eləyib. Bu da ölkədə şeirin, sənətin, yüksək fəlsəfənin xalqın, insanların, gənclərimizin inkişafına, təkamülünə necə böyük təsir etdiyinin bir daha etirafıdır.

Bir də, hörmətli Ziyafət müəllim, xahiş edirəm, bunu da demək istərdim. "Partitura" sözünü deyirəm. İstənilən izahlı lüğəti açsanız, əmin olarsınız ki, mən dediyim fikir düzgün fikirdir. İstənilən musiqiçi ilə söhbət etsəniz, görərsiniz ki, düzgündür. Mən razıyam ki, Konstitusiya və digər sənədlərdə "partitura" öz əksini tapıbdır və bu gün bizə təqdim olunan layihədə onu dəyişdirmək mümkün

deyil. Amma hər halda mənim borcum idi bunu deyim ki, gələcəkdə yenidən o sənədlərə, qanunlara baxılanda mütləq nəzərə alınsın. Çünki bu, açıq-aşkar səhvdir, "partitura" sözü orada getməməlidir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Gövhər xanım, çox sağ olun, təşəkkür edirəm. Siz artıq özünüz də təsdiq elədiniz ki, bu Konstitusiya Qanununda nəzərdə tutulub, biz bundan kənara çıxa bilmərik. Amma mən özüm üçün də aydınlaşdırdım. Respublikanın beş professoru, xalq artisti ilə bu məsələni müzakirə eləmişəm. Beşi də eyni fikirdədir ki, tamamilə düzdür, Konstitusiya Qanununda Azərbaycan himninin musiqisi onun partiturasıdır. Mən onların fikrinə etiraz eləyə bilmərəm.

Yaxşı, Ülvi müəllim, deyilən fikirlərə münasibət bildirəcəksiniz, ya qalsın üçüncü oxunuşa?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əgər başqa çıxış eləmək istəyən yoxdursa, bizim etdiyimiz dəyişikliklər 9 maddəni əhatə eləyir, ona görə, xahiş edirəm, 1-3-cü və 4-cü maddələrdə edilən dəyişikliklərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

5-ci, 6-cı, 7-ci maddələrə münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

9-cu və 10–13-cü maddələrdə edilən dəyşikliklərə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi rica edirəm.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin növbəti məsələsi. “Azərbaycan Respublika-

sı diplomatik xidmət orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Bilirsiniz ki, Xalq Cümhuriyyətinin 100 illiyi tədbirləri çərçivəsində o zaman cümhuriyyət qurucuları tərəfindən yaradılmış bir çox orqanlarla bağlı biz yubiley medallarını təsis etdik. Bu qəbildən "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919–2019)" yubiley medalının təsis edilməsi ilə bağlı cənab Prezident tərəfindən təşəbbüs irəli sürülüb. Qeyd edə bilərəm ki, medal indiyə qədər mövcud olan orden və medallar kimi həm milli atributları daşıyır, həm də diplomatik fəaliyyətin atributlarını özündə əks etdirir. Hörmətli millət vəkillərindən səs vermələrini xahiş edirəm və hesab edirəm, cümhuriyyətimizin 100 illiyi ilə bağlı yeni bir medal töhfəsi vermiş olacağıq.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən varmı? Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.16 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. 21-ci və 22-ci məsələlər bir paketdə daxil olub. İcazə versəydiniz, məruzə edərdim. 2017-ci ildə "Daşınar əmlakın yüklülüyü haqqında" Qanun qəbul olunmuşdur. Həmin qanunun icrası ilə əlaqədar İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişikliklər təklif olunur. Belə ki, reyestr aparan qurumun vəzifəli şəxsi tərəfindən məlumatların saxlanılması və reyestrin aparılması qaydalarının pozulması qanunla müəyyən edilmiş məsuliyyət yaradır. Bu tələblərin pozulmasına görə inzibati məsuliyyət yaranır və buna görə İnzibati Xətalar Məcəlləsinə 440-1-ci maddənin əlavə olunması təklif olunur.

Mülki Prosessual Məcəllədə isə məhkəmə tərəfindən iddianın təmin edilmək tədbiri ilə bağlı iş üzrə qanuni qüvvəyə minmiş qərar çıxarılanadək debitor borcun həmin qərarda göstərilən xüsusi hesaba ödənilməsi və orada saxlanılması müəyyən edilməlidir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Nə təklif olacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, 21-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş.

Əli müəllim bu barədə məlumat verdi. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.19 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi dəqiqləşdirmə xarakterli düzəlişləri nəzərdə tutur. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən daşınmaz əmlakın girovu ipoteka adlandırıldığından 119.1.4-1-ci və 119.3-cü maddələrdə müvafiq dəyişiklik təklif olunur. Eyni zamanda, qanunun daha dürüst tətbiqi məqsədi ilə həmin maddələrdə istisnalar nəzərdə tutulur. Əli müəllim

də qeyd etdi, millət vəkillərindən xahiş edərdim ki, qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Sağ olun, Ziyad müəllim. Çıxış etmək istəyən varmı? Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.20 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. İcazə versəydiniz, bu məsələni də yenə paket şəklində təqdim edərdim. Çünki birində inzibati xəta, digərində isə cinayət məsuliyyəti yaradan əməldən söhbət gedir.

Belə ki, son dövrlər mobil şəbəkəyə "Simboks" adlanan avadanlıqlar vasitəsi ilə qoşulmaqla qanunsuz olaraq beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsi halları müşahidə olunur. Bu cür hallar, təbii ki, araşdırılır, amma onlara hüquqi qiymət verilməsi çətinlik yaradır. Məhz buna görə də cənab Prezident tərəfindən bu əməllər əhəmiyyətli zərər, xeyli miqdarda zərər, külli miqdarda zərər vurarkən cinayət məsuliyyəti yaradılması kimi qə-

bul edilməsi təklif olunmuşdur. Buna görə də Cinayət Məcəlləsinə 233-4-cü "Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili" maddəsinin əlavə olunması təklif olunur. Eyni zamanda, istəyirəm, diqqət yetirəsiniz, həmin maddənin qeyd hissəsində həm müvafiq qurğunun, həm də əhəmiyyətli zərərin anlayışı verilir, həmçinin xeyli miqdarda və külli miqdarda zərərin məbləği göstərilir. Eyni ilə bu əməl cinayət tərkibi yaratmırsa, İnzibati Xətalar Məcəlləsində də öz əksini tapır. İnzibati Xətalar Məcəlləsinə 363-1-ci "Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili" maddəsi əlavə olunur. Burada isə təbii ki, cərimə sanksiyaları nəzərdə tutulur. Hörmətli həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Bu paketdə bir qanun layihəsi də daxil olub. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında. Ziyad müəllim, bu barədə məlumat verin, səsverməni ayrıca keçirərik.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Hörmətli Əli müəllim bu qanunda dəyişikliklər barədə kifayət qədər əsaslı fikirlərini bildirdi. "Telekommunikasiya haqqında" Qanunun 33-cü maddəsinə aşağıdakı cümlə əlavə olunur: "operator və ya provayderin telekommunikasiya şəbəkəsinə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə tədbirlər görmək".

Qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihələrinin müzakirəsinə başlayırıq. Qüdrət Həsənquliyev, buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, media nümayəndələri! Biz Cinayət Məcəlləsinə 233.4-cü yeni maddə əlavə edirik. Bu, "Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili" adlanır.

Bizim Cinayət Məcəlləsində 192-ci, qanunsuz sahibkarlıq maddəsi var. Orada da qeyd olunur ki, xüsusi razılıq, yəni lisenziya tələb olunduğu halda belə razılıq olmadan fəaliyyət göstərilməsi qanunsuz sahibkarlıq kimi qiymətləndirilir və cinayət hüquqi qaydada təqib olunur və cəzalandırılır. Ona görə də telekommunikasiya xidmətinin göstərilməsi üçün lisenziya alınmalıdır. Əgər lisenziya alınmadan bu fəaliyyət göstərirsə, bu, qanunsuz sahibkarlıqdır. Ona görə mən düşünmürəm ki, Cinayət Məcəlləsinə ayrıca, yeni bir maddənin əlavə edilməsinə və məcəllənin həcminin də şişirdilməsinə ehtiyac var.

Bundan əlavə, Ziyafət müəllim, həm də bu məsələ ilə bağlı olduğu üçün qeyd etmək istəyirəm ki, mən dünən mətbuatda oxudum, bir qrup hüquq müdafiəçisi – hörmətli Novella Cəfəroğlu, Səadət Bənənyarlı və Səidə Qocamanlı Ramil Usubovla görüşüblər və vaxtilə cinayət törədib həbs olunmuş bir qrup şəxsin əfv olunması barədə müraciət ediblər. Artıq Əfv komissiyasının iclasları keçirilir. Ümid var ki, cənab Prezident mart ayında belə bir əfv sərəncamı imzalayacaq. Ona görə onların müraciətlərinə qoşuluram, onlar cənab Prezidentə də müraciət ediblər. Bu insanlar öz obyektivlikləri, sağlam mövqeləri ilə cəmiyyətin rəğbətini qazanmış insanlardırlar. Həm də beynəlxalq təşkilatlar haqlı olub-olmamalarından asılı olmayaraq bir qrup insanın həbsdən azad olunması təşəbbüsü ilə

çıxış ediblər. Mən düşünürəm, həm yerli hüquq müdafiəçilərinin, həm də beynəlxalq hüquq müdafiə təşkilatlarının müraciətlərini nəzərə alaq, biz də onların təşəbbüsünə qoşulaq və arzu edək ki, dövlət və vətəndaş əleyhinə, yəni şəxsiyyət əleyhinə ağır və xüsusilə ağır cinayət törətmiş şəxslər istisna olmaqla, digər şəxsləri, – hüquq müdafiəçiləri siyahılarını təqdim ediblər, onların da böyük bir qismi təyin olunmuş cəzanın əhəmiyyətli hissəsini çəkib, – cənab Prezidentdən xahiş edək onları əfv etsin. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli deputatlar, əziz media nümayəndələri! Doğrudan da, bu məsələ kifayət qədər vacibdir. Tale elə gətirib ki, fəaliyyətimlə bağlı tez-tez xarici ölkələrdə oluram, məlum problemlə mütəmadi olaraq qarşılaşıram. Hansısa vacib məsələ ilə bağlı Bakıdan zəng gözləyirsən, zəng, adətən, hansısa başqa nömrədən və haralarısa dolanıb gəlib çatır. Məsələn, Londondasansa, sənə Bakıdan gələn zəng həm başqa nömrədən, həm də başqa məkandan, tutaq ki, Rusiyadan keçib gəlir. Yəni telefonun ekranında Azərbaycan əvəzinə Rusiya yazılır. Bakıda da elədir. Dəfələrlə olub. Tutaq ki, Rusiyadan sənə kimsə zəng edir, ekranda başqa nömrə, başqa ölkə çıxır. Görünür, kimlərsə müxtəlif yollarla bundan milyonlarla qazanc əldə edirlər. Ona görə belə bir düzəlişin edilməsi vacibdir.

Hörmətli Ziyafət müəllim, əgər söhbət telekommunikasiya sahəsindən gedirsə, bir məsələni də mütləq vurğulamaq istəyirəm. Bakıdan çıxıb Hacıqabula çatanda İran radiolarının dalğaları bizim radioların dalğalarını üstələyir, hətta udur. Ağsu dolaylarında bizim radio dalğalarında ermənilərin radiosunu eşidirik. Gəncədən o yana gürcü ra-

dioları hakimdir. Hər bir dövlətin quru sərhədləri olduğu kimi, ona məxsus informasiya məkanının da sərhədləri var. Ölkəmizin gələcəyi naminə hər iki sərhədimizi qorumalıyıq. Ona görə də mümkün olarsa, aidiyyəti qurumlar qarşısında məsələ qaldıraq, ikinci məsələni də biz müvafiq qaydalarla həll etməyə nail olaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış etmək istəyən yoxdur? Onda xahiş edirəm, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Bu paketə daxil olan növbəti qanun layihəsinə münasibət bildirək. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Nəhayət, bugünkü gündəliyimizin sonuncu məsələsi. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi, ikinci oxunuş. Söz verilir komitə sədri İsa Həbibbəyliyə. Buyurun, İsa müəllim.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım! Mən qanun layihəsini ikinci oxunuşda təqdim etməmişdən əvvəl diqqəti bir vacib məsələyə yönəltmək istəyirəm. Bildiyiniz kimi, ölkəmizin Prezidenti cənab İlham Əliyev bu günlərdə Azərbaycan Respublikasında doktorantura, magistratura, bakalavr səviyyəsində və peşə, orta ixtisas məktəblərində təhsil alan tələbələrin təqaüdlərinin artırılması barədə sərəncam və fərmanlar imzalamışdır. Bu sərəncam və fərmanlara görə dövlət ölkəmizdə 6 min nəfər doktorantın, 110 min nəfər tələbənin təqaüdünün artırılmasına dəstək verir. Bu, Azərbaycanda, ümumiy-

yətlə, təhsilin, elmin, ziyalılığın inkişafına göstərilən böyük qayğıdır, Prezident tərəfindən ölkəmizin sabahına verilmiş böyük təminatdır. Bütün bunlara görə ölkəmizin təhsil ictimaiyyəti, ziyalıları adından möhtərəm Prezidentimizə dərin minnətdarlığımı çatdırmağı özümə borc bilirəm.

Ümumi təhsil haqqında qanun layihəsi dekabrın 18-də birinci oxunuşda müzakirə olunarkən deputat həmkarlarımın qaldırdığı bəzi məsələlər bu gün müzakirəyə çıxarılan qanun layihəsində əksini tapmışdır. Həmin vaxt özəl, xüsusi, icbari təhsil, tədris dili və repetitorluq kimi məsələləri cavablandırdığımız üçün o məsələlərə bir də qayıtmağı vacib saymıram. Diqqəti sizə təqdim olunan qanun layihəsindəki bəzi müddəalara cəlb etmək istəyirəm.

Deputat həmkarlarım birinci oxunuş zamanı çıxış edərkən qanun layihəsində xarici dillərin xüsusi təşviq edilməsini məqsədəuyğun saydılar. Biz hesab edirik ki, təqdim olunan qanun layihəsi ilk növbədə Azərbaycan dilinin, dövlətçiliyinin, milli maraqlarının təmin olunması istiqamətinə cavab verir. Sözsüz ki, bununla yanaşı, təqdim olunan qanun layihəsində xarici dillərin tədrisini məhdudlaşdıran heç bir müddəa da yoxdur. Hətta məlumat verməyi də lazım bilirəm ki, Təhsil Nazirliyi tərəfindən son illərdə məktəblərdə üçüncü xarici dil tədris olunmaqdadır. Biz hesab edirik ki, xarici dillərdə təhsil aparılan məktəblərdə mütləq Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan coğrafiyası və Azərbaycan tarixi fənləri tədris olunmalıdır.

Bununla yanaşı, başqa bir problem də ortaya çıxır. Xarici dillərdə təhsil almaq üçün müraciət edən şagirdlərin bir çoxu əvvəlcədən bu sahədə heç bir hazırlığı olmadığı üçün 1-2 il oxuduqdan sonra təkrar Azərbaycan məktəblərinə qayıtmalı olurlar. Bunların hər ikisi tam təhsil ala

bilmirlər. Bunun qarşısını almaq üçün deputat həmkarlarımın da irəli sürdükləri təklifləri əsas götürərək təqdim olunan qanun layihəsinə xarici dillərdə təhsil almaq istəyən şagirdlərdən həmin məktəblərə müraciət etdikləri zaman müsahibə götürülməsinə dair müddəa daxil edilmişdir. Hesab edirəm, bu müddəanın daxil edilməsi yaranmış problemi aradan qaldırmağa öz töhfəsini verə bilər.

Millət vəkilləri haqlı olaraq, – gündəmdə də bu var, – təhsil proqramlarının, kurikulumların mürəkkəb olması və bu proqramlarda milli-mənəvi dəyərlərin öz əksini tapması barədə həyəcanlı fikirlər bildirdilər. Bu təkcə Milli Məclisdə irəli sürülən təklif deyil, cəmiyyətdə də bu istiqamətdə müəyyən fikirlər səslənməkdədir. Bildirmək istəyirəm ki, təhsil proqramları, ümumiyyətlə, yaxın və yaxud uzun müddət üçün nəzərdə tutulur. Uzaq müddət üçün nəzərdə tutulan tədris proqramlarının da başlanğıcı və sonu vardır. Təhsil Nazirliyi hazırda təhsil proqramları üzərində iş aparır. Mənə verilən məlumata görə, təhsil proqramları haqqında aparılan iş artıq başa çatmaq üzrədir. Burada həm təhsil proqramlarının sadələşdirilməsi, həm də milli-mənəvi dəyərlər, azərbaycançılıq prinsiplərinin özəl, layiqli yer tutması məsələsi nəzərə alınmışdır. Biz komitədə müzakirə zamanı Təhsil Nazirliyinin nümayəndələrindən xahiş etmişik ki, aktuallığı nəzərə alınaraq, hazırlanan təhsil proqramları Milli Məclisin Elm və təhsil komitəsində birgə şəkildə müzakirə olunsun.

Təqdim olunan qanun layihəsində özəl təhsildə ödənişli təhsilin qiymətləndirilməsi məsələsi barədə yeni müddəa vardır. Biz qanun layihəsinə özəl təhsil müəssisələrinin imkanlarına uyğun olaraq fərqli qiymətləndirmənin tənzimlənməsi üçün müvafiq icra hakimiyyəti orqanının nəzarətedici və ya tənzimləyici funksiyasının həyata keçi-

rilməsini təmin edən müddəanı da əlavə etmişik.

Qanun layihəsindəki mühüm dəyişikliklərdən biri də 5-ci maddə ilə 8-ci maddənin yerinin dəyişməsidir. Bunlar dövlətin ümumi təhsili həyata keçirmək üçün üzərinə götürdüyü öhdəçiliklə bağlı və aralarında fərq çox az olsa da, bunlardan birinin, 5-ci maddədə olan təhsilin dövlət standartlarının, 2-ci maddədə ümumi təhsilin təşkilinə aid olduğunu gördük. 8-ci maddədəki ümumi təhsil hüququna dövlət təminatının isə 1-ci maddəyə aid olduğu müəyyən olundu. Buna görə də biz 5-ci maddə ilə 8-ci maddənin yerini dəyişməyi məqsədəuyğun saydıq. Bu, elə bilirəm, tamamilə uyğundur.

Məktəbə hazırlığın səviyyə, mərhələ olması məsələsi barədə də deputat həmkarlarım müxtəlif fikirlər səsləndirdilər. Məktəbə hazırlıq artıq Azərbaycan təhsil sisteminin reallığıdır. Doğrudur, son illərdə tətbiq olunmağa başlamışdır. Artıq bu ilin statistikasına görə Azərbaycanda məktəbə hazırlıq yaşına, yəni 5 yaşına çatanların artıq 75 faizi bu təhsillə əhatə olunubdur. Hədəf yaxın illərdə 90 faizə çatmaqdan ibarətdir. Dünya ölkələrində də 90 faiz ən yüksək rəqəmlərdən biri kimi qəbul olunur. Yəni məktəbə hazırlıq səviyyəsi artıq məktəb həyatında özünü təsdiq etmiş faydalı bir mərhələ kimi isbat olunmuşdur. Ona görə də məktəbə hazırlığın səviyyə kimi qəbul olunması bu günün reallığıdır. Biz bununla de-fakto razılaşmalıyıq.

Müəllim köməkçisi, haqlı olaraq burada nəzərimizə çatdırılmışdı ki, müəllim köməkçilərinin ixtisaslı şəxs olub-olmamaları barədə əsas anlayışlarda verilən məlumatlarda qeyd yoxdur. Haqlı olaraq bu qeydi nəzərə alaraq, qanun layihəsində müəllim köməkçisinin ixtisaslı şəxs olmasına dair müddəanı əks etdirdik.

Metodistlə bağlı qanun layihəsində ayrıca maddə yox

idi. Həqiqətən, ümumi təhsil məktəbini metodistsiz təsəvvür etmək olmaz. Biz qanun layihəsinə metodist anlayışını bildirən müddəa daxil etmişik. Hətta iclasın gündəliyi deputatlara təqdim olunandan sonra metodist anlayışına dair Təhsil Nazirliyindən yeni təklif almışıq. O daha məqsədəuyğundur. Növbəti oxunuşda onu daxil etməyi nəzərdə tuturuq.

Qanun layihəsində göstərilib ki, məktəb rəhbərləri müvafiq icra hakimiyyəti orqanının təyinatı ilə müəyyən olunur. Amma reallıqda müvafiq icra hakimiyyəti orqanı, həm Təhsil Nazirliyi məktəb rəhbərliyini seçmək üçün müsabiqə keçirir. Deputat həmkarlarım üçün sual doğururdu ki, müsabiqə əsas olacaq, yoxsa təyinat? Cavab vermək istəyirəm ki, hər ikisi. Çünki məktəb rəhbərləri əvvəlcə hazırlanır, müsabiqə yolu ilə seçilir, onların içərisindən seçilmişlər müvafiq icra hakimiyyəti orqanının əmri ilə təyin olunur. Bu hər iki nüans qanun layihəsində öz əksini uyğun şəkildə tapmışdır.

Diaqnostik qiymətləndirmə varsa, sertifikatlaşmaya nə ehtiyac vardır sualı da meydana çıxmışdı. Nəzərə çatdırmaq istəyirəm ki, diaqnostik qiymətləndirmə müəllimlərin sosial təminatına, əmək haqqına aid olan bir prosedurdur. Sertifikatlaşma isə onların müəllimlik hüququnun davam etdirilməsini təmin edən bir vasitədir. Ona görə bunlar bir-birinə yaxın olsa da, eyni deyillər. Hər ikisinə dair müddəalar Ümumi təhsil haqqında qanun layihəsində ayrı-ayrı maddələrdə öz əksini tapmışdır. Biz bu şəkildə saxlamağı məqsədəuyğun sayırıq.

Məktəbin nizamnaməsi kimin tərəfindən təsdiq olunmalıdır sualı da həm komitədə, həm də plenar iclasda birinci oxunuşda müzakirə zamanı irəli sürülmüşdü. Nəzərə çatdırmaq istəyirəm ki, məktəbin nümunəvi nizamnaməsi

müvafiq icra hakimiyyəti orqanı, yəni Nazirlər Kabineti tərəfindən təsdiq olunur. Məktəb nizamnamələri isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum, yəni Təhsil Nazirliyi tərəfindən təsdiq olunur. Bu cəhətdən qanun layihəsində əksini tapan müddəalar həm dünyada, həm də ölkəmizdə bu nüansları tam, doğru-düzgün yerinə qoymağa imkan verir.

Məktəblərdə psixoloq olsun, ya olmasın? De-fakto var. Qanun layihəsini nəzərdən keçirənlər maliyyə yükünü nəzərə alaraq, məktəbdə psixoloq ştatının ləğv olunmasını tələb edirlər. Amma məktəbin içində olan pedaqoji ictimaiyyət böyük məktəblərdə bir deyil, bir neçə psixoloqun olmağını zəruri sayır. Ona görə də biz qanun layihəsində məktəb psixoloqlarının olmasını, onların funksiyaları ilə bağlı maddəni günün reallığı hesab edirik və qəbul olunmasını məqsədəuyğun sayırıq.

Redaktə xarakterli bir çox qeydlər irəli sürülmüşdü, onların, demək olar ki, hamısı nəzərə alınıb. Mən çıxışımın sonunda qanun layihəsini əsas kimi qiymətləndirən, faydalı təkliflər irəli sürüb, onun təkmilləşməsi baxımından bizə köməklik göstərmiş Maliyyə, Təhsil nazirliklərinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Onların rəyləri bu qanunun təkmilləşməsi üçün bizə bələdçi oldu. Eyni zamanda, qanun layihəsini diqqətlə oxuyub, yazılı şəkildə rəyini bildirən deputat həmkarlarım Vahid Əhmədova, Əli Məsimliyə və Milli Məclis Sədrinin müavini Valeh Ələsgərova da minnətdarlığımı bildirirəm. Diqqətinizə görə sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Ziyafət Əsgərov.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım. İsa müəllim, bu, müəyyən qədər qanunun konsepsiyası ilə bağlıdır. Amma eyni zamanda elə 1-ci maddə ilə bağlı mən bəzi fikirlərimi demək istəyirəm. Bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə görə bu və ya digər normativ hüquqi akt qəbul ediləndə onun adını müəyyənləşdirən anlayışlar əvvəlcə, onunla bağlı olan anlayışlar isə sonra verilməlidir. Yəni bu, əslində, həm də məntiqin tələbidir. Söhbət nədən gedir? Bizim qanun layihəsinin adı Ümumi təhsil haqqında qanun layihəsidir. Biz ümumi təhsilin anlayışını verməmiş, artıq keçirik akkreditasiya şəhadətnaməsinə. Akkreditasiya şəhadətnaməsi nədir? Müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən və ümumi təhsil müəssisəsinin fəaliyyətinin davam etdirilməsinə hüquqi əsas yaradan sənəd. Gərək biz müəyyən edək ki, ümumi təhsil nədir, ümumi təhsil müəssisəsi nədir, ondan sonra keçək akkreditasiya şəhadətnaməsinə. Ona görə, xahiş edirəm, ümumi təhsil nədir, orta təhsil nədir, bu məsələlər əvvələ keçirilsin. Bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir. Bu, həm də məntiqi cəhətdən düzgün olardı.

Sonra burada, 1.0.47-ci maddə "ümumi təhsil müəssisələrində psixoloji xidmət". Onun ardınca gəlir "ümumi təhsil müəssisəsi". Ümumi təhsil müəssisəsini müəyyən eləyək, görək bu nədir? Sonra keçək onun psixoloji yardımına, elə deyil? Mənim təklifim bundan ibarətdir. Sağ olun.

**Sədrlik edən.** İsa müəllim, sonra nəzərə alarsınız. Hələ çıxışlar çox olacaq. Birinci, xahiş edirəm, ikinci oxunuş olduğu üçün qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.45 dəq.) |
|---|---|
| Lehinə | 75 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 76 |
| Nəticə: Yetərsay yoxdur | |

Yetərsay yoxdur. Xahiş edirəm, deputatlardan kim yoxdur, dəvət edin. Səsvermədə hər dəfə yetərsay olmayacaq. Xahiş edirəm, diqqətli olun. Bir daha səsə qoyun.

| **Səsvermənin nəticələri** | (saat 14.46 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun. Buyursun Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Sağ olun, cənab Sədr. Əvvəla, hesab edirəm ki, Ziyafət müəllimin qeydləri tam haqlıdır və ümid edirəm, nəzərə alınacaq. Mənim münasibət bildirmək istədiyim məsələ 4.0.22-dir. Amma bundan öncə, sözsüz ki, mən həm İsa müəllimə, həm bu layihənin hazırlanmasında iştirakı olan şəxslərə, birinci oxunuşda təkcə

yazılı deyil, həm də şifahi təklif verən şəxslərə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Həmin 4.0.22-ci maddədə dövlət ümumi təhsil müəssisəsində ödənişsiz tibbi xidmətin təşkili qaydalarını müəyyənləşdirmək və tibbi xidməti həyata keçirmək qeyd olunur. Keçən dəfə "Gənclər siyasəti haqqında" Qanuna dəyişiklik birinci oxunuşda müzakirə edilərkən mən söyləmişdim ki, əslində, Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin II hissəsinə görə, dövlət mülkiyyətin heç bir növünə üstünlük vermir. Burada da dövlət, bələdiyyə və özəl ümumtəhsil müəssisələrindən söhbət gedir. Onda niyə dövlət ümumtəhsil müəssisələrində dövlət tərəfindən ödənişsiz xidmət təşkil olunduğu halda, tutaq ki, bələdiyyə və digər özəl ümumtəhsil müəssisələrində bu, təşkil olunmur? Bundan başqa, biz bilirik ki, bir çox tələbələr dövlət qayğısı ilə əhatə olunub və onlar hətta özəl universitetlərdə, məktəblərdə təhsil alsalar da, onların müəyyən xərclərini dövlət öz üzərinə götürüb. Ona görə də düşünürəm, daha yaxşı olardı ki, burada fərq qoymayaq. Yəni bütün ümumtəhsil məktəbləri üçün dövlət ödənişsiz tibbi xidməti təşkil eləsin.

Bundan başqa, 4.0.23-cü maddədə ümumi təhsil sahəsində yerli və xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin etmək qeyd olunur. Keçən dəfə, birinci oxunuşda da mən bunu söyləmişdim. Bu, əlverişli investisiya mühiti çox yayğın ifadədir və deklarativ xarakter daşıyır. Yəni burada hansı mühitdən söhbət gedir, onun izahı nədir? Kim bunu necə qavrayır? Ona görə yaxşı olardı, burada biz qeyd eləyək. Biz bilirik ki, hər kəsin özünün hüquq düşüncəsi, dünyagörüşü var. Yəni əlverişli mühit deyəndə, burada vergidən tam və yaxud qismən azad olunmadan pulsuz

torpaq sahəsinin ayrılmasından, yaxud güzəştli şərtlər ilə dövlət tərəfindən kreditlərin verilməsindən söhbət gedə bilər. Yəni ümid edirəm ki, bunların hamısı qanunvericiliyə daxil olsa, daha yaxşı olar.

13.27-ci maddədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş beynəlxalq fənn olimpiadalarının qaliblərinin ali məktəblərə müsabiqədənkənar qəbul olunması ilə bağlı müddəa qeyd olunur. Hesab edirəm ki, bu müddəa çox doğrudur. Son vaxtlar Təhsil Nazirliyi tərəfindən təhsilin stimullaşdırılması istiqamətində görülən işlər təqdirəlayiqdir. Bu müddəanın buraya daxil edilməsini də mən, sözsüz ki, alqışlayıram.

Münasibət bildirmək istədiyim başqa məsələ 26.3-cü maddə ilə bağlıdır. Bu, ümumtəhsil sahəsində təhsilverənlərin sosial müdafiəsi ilə bağlıdır. Əlbəttə, burada qeyd olunur ki, vəzifə maaşı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Amma mən əvvəllər də bu məsələni qaldırmışam ki, müəllimlərin minimum əmək haqqının aşağı həddini biz qanunvericilik qaydasında göstərə bilərik. Necə ki, bir çox sahələrdə çalışan insanların əmək haqlarını biz qanunla müəyyən edirik, o cümlədən də müəllimlər üçün edə bilərik. Bilirsiniz ki, ölkəmizdə repetitorluq geniş yayılıb. Mən hər dəfə bu məsələni qaldırıram. Bunun üçün ilk növbədə müəllimlərin əmək haqqı artırılmalıdır və müəllimlərin minimum əmək haqqı ölkə üzrə orta aylıq əmək haqqından az olmamalıdır. Düşünürəm ki, biz bunu da bu qaydada qanunvericiliyə daxil edə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı.

**M.Qasımlı.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi haqqında öz fikirlərimi deməzdən əvvəl, icazənizlə, son günlərdə Prezidentimiz cənab İlham

Əliyev tərəfindən peşə təhsili, universitet tələbələrinin, magistrlərin, doktorantların və dissertantların təqaüdlərinin artırılmasının böyük əhəmiyyət daşıdığını, ailələrin yükünü yüngülləşdirdiyini, xüsusən gənclərin elm və təhsilə marağının artmasında böyük stimul olduğunu qeyd edim və buna görə cənab Prezidentimizə seçicilərimin adından öz minnətdarlığımı bildirim.

İndi isə qanun layihəsi barədə. Heç şübhəsiz, qanun layihəsi üzərində böyük zəhmət çəkilib, çox iş görülüb. Ekspertlərin də əməyi var, hörmətli İsa müəllimin rəhbərliyi altında komitə işləyib. Bu qanun ümumi təhsilimizin qanunvericilik, hüquqi bazasını möhkəmləndirəcək. Hesab edirəm ki, bizim hörmətli Ziyafət müəllimin dediyi qeydlər çox dəqiqliklə, xırdalığına qədər nəzərə alınmalıdır. Bu, ancaq qanunun standartını, keyfiyyətini artıracaq.

İkinci toxunacağım məsələ, Oqtay müəllim, bu qanun məktəbimizdə kadr məsələsinin keyfiyyətinin yaxşılaşdırılmasına təsir göstərəcək. Heç kəsə sirr deyil ki, SSRİ dağılandan sonra bir çox təhsildən uzaq olan şəxslər məktəblərimizə doluşdular. Bu gün məktəblərimizi həmin şəxslərdən azad etməyin zamanı gəlib çatıb. Ümumi təhsil haqqında qanun qəbul ediləndə məktəblərimiz təmizlənəcək və məktəblərimizə müəllimlik peşəsini sevən adamlar gələcək. Amma burada bir məsələni mən xüsusi vurğulamaq istəyirəm.

Hörmətli Oqtay müəllim, mən hesab edirəm ki, bəlkə də buna Sizin müdaxiləniz lazımdır və Təhsil Nazirliyinin yüksək vəzifəli şəxsləri iştirak etdiyinə görə söyləyirəm. Bizim kənd məktəblərində müəllim çatışmazlığı var. Qadın universiteti bitirib kənddə yaşayır, amma imtahana gələ bilmir. Onun diplomu üzrə məktəbdə müəllim yoxdur. Tamam başqa müəllim başqa yerdən gəlib işləyir.

Onun neqativ tərəflərini burada söyləməyi özümə yaraşdırmıram. Onlar məktəbə gəlmirlər və yaxşı olmazdı ki, həmin adamlarla müqavilələr bağlansın? Bu zaman biz başqa bir məsələni, qızların təhsilə cəlb olunması və erkən nikahların qarşısının alınması məsələsini də həll edəcəyik. Yəni ucqar bir dağ kəndində qadın müəllimə dərsə gedəndə qonşular öz qızlarını ona qoşacaqlar, məktəbə göndərəcəklər. Beləliklə, bizim qızlarımız təhsil alacaqlar.

Mirzə Cəlil deyirdi ki, millətin gələcəyi anaların əlindədir. Erkən nikahların da qarşısı alınacaq. Kəndin də ümumi mədəni səviyyəsi yüksələcək. Mən hesab edirəm ki, bu qanunun tətbiqindən sonra bizim icra orqanımız – Təhsil Nazirliyi bu məsələyə xüsusi diqqət yetirməlidir. Bu qanun bizim tədrisin keyfiyyətini yüksəldəcək və repetitorluğun qarşısını alacaq. Bütün maddələr bunu özündə əks etdirir.

Söyləyəcəyim sonuncu məsələ. Burada biz çox qanun layihələrini müzakirə edirik. Bu qanunun dili ən mükəmməlidir. Azərbaycan ədəbi dilinin normaları səviyyəsindədir və hesab edirəm ki, digər qanunlarımız üçün də bir norma halına gələ bilər.

Sonunda, Oqtay müəllim, hesab edirəm, bu qanunun bir də ciddi redaktə olunmasına ehtiyac var. Böyük zəhmət çəkilib. Bu qanun qəbul edilə bilər və bizim ümumi təhsilimizdə yeni bir mərhələ açacaqdır. Qanuna səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Sualı var, buyursun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Təqdim edilmiş qanun layihəsi kifayət qədər təkmil hazırlanıb. Birinci oxunuşda deyilən təkliflər də hörmətli həmkarımız İsa müəllim tərəfindən

yüksək səviyyədə təqdim olundu. Mənə elə gəlir ki, əgər hörmətli həmkarlarımız etiraz eləməsələr, təklif edərdim ki, cənab Sədr, çox zəruri fikirlərini ifadə etmək istəyənlər yazılı şəkildə həmin rəylərini komitəyə təqdim etsinlər. Bir neçə nəfərə, əgər təkid edən varsa, hörmətli cənab Sədr, onlara da imkan yaratmaq olar və biz bu işi yekunlaşdıra bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çıxışa yazılanlardan təkid edən var? Yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda təkliflərini yazılı şəkildə versinlər. Növbədə Tahir Mirkişilidir, ona söz verək və ondan sonra səsə qoyarıq. Tahir Mirkişili.

**T.Mirkişili.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, mənim qısa şəkildə 3 təklifim var. İstəyirdim, onu səsləndirim. Qeyd edim ki, ümumi təhsil bu gün təhsilin ən böyük qoludur, orada 1 milyon 500 min şagird oxuyur. Bu sahədə yüz mindən çox müəllim öz fəaliyyətini davam elətdirir. Onunla bağlı düşünürəm ki, qanun layihəsi kifayət qədər əhatəlidir. Çağdaş dövrün bir çox tələbləri qanun layihəsində öz əksini tapıb.

Hörmətli cənab Sədr, mən qısa olaraq bir məsələyə xüsusi diqqət cəlb eləmək istəyirəm. Bu gün, ümumilikdə, Azərbaycan əhalisinin 80 faizi internetə qoşulubdur. Bu gün ölkəmizdə sosial şəbəkələrdə istifadəçilərin sayı 3 milyon nəfərə yaxınlaşır. Bu o deməkdir ki, əslində, bunların böyük bir hissəsi, eyni zamanda, orta məktəbdə oxuyan şagirdlər və orta məktəbi qurtaran gənc insanlardır. Bu gün internet verdiyi üstünlüklə yanaşı, mühüm bir problemi ortaya çıxarır ki, bu, şagirdlər arasında sosiallaşmanın çox aşağı səviyyədə olmasıdır. Yəni siz fikir versəniz, bu gün orta məktəb şagirdləri bir-biri ilə

danışanda daha çox telefon vasitəsi ilə, sosial şəbəkədən istifadə edirlər. Ona görə mən təklif edirəm ki, hörmətli İsa müəllim, qanunun 7-ci maddəsində Azərbaycan dövləti qarşısında duran və dövlət siyasətinin əsas istiqaməti kimi sosiallaşmanı da burada əhatə edək. Orta məktəblər də bununla bağlı daha çox işlər görülsün. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu qanun layihəsi 5 fəsil, 32 maddədən ibarətdir. Fəsil-fəsil səsə qoyaq. 1-ci və 2-ci fəsillər, 3-cü və 5-ci fəsillər. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, 1-ci və 2-ci fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
|---|---|
| Lehinə | 79 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 79 |
| Nəticə: Yetərsay yoxdur | |

Yəqin bundan sonra tənəffüssüz işləməyəcəyik. Tənəffüssüz işləyəndə 2-3 dəfə səsvermə keçiririk. Bir daha xahiş edirəm, səsvermə keçirək.

| **Səsvermənin nəticələri** | (saat 14.59 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

3-cü, 4-cü və 5-ci fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.59 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 15.00 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qanun layihəsi qəbul edildi. Bugünkü iclasımız sona çatdı. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***19  fevral 2019-cu il***

**Aqiyə Naxçıvanlı.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası qanununun layihəsi cəmiyyətimiz üçün vacib sənəddir. Ümumiyyətlə, son dövrlərdə təhsil haqqında çox vacib qanun və qərarlar qəbul olunur. Bu da dövlətimizin təhsilin inkişafına göstərdiyi diqqət və qayğısının nəticəsidir.

Qanun layihəsinin ikinci oxunuşda olan müzakirəsindən istifadə edib bəzi fikirlərimi və təkliflərimi səsləndirmək istəyirəm. Qanun layihəsinin 12.13-cü maddəsində ümumtəhsil müəssisələrində təhsil alanlar üçün geyim formalarının tətbiq olunması, xüsusilə həmin maddədə şəhid ailələrindən olan şagirdlərin məktəbli geyim formalarının dövlət hesabına təmin edilməsinin təsbit olunması böyük əhəmiyyət kəsb edir. O cümlədən, övladı məktəbdən
nan valideynlərə inzibati məsuliyyət yaratmağın qan
yihəsinin 24.3-cü maddəsində əks olunması çox vacibdir. Çünki bilirsiniz ki, bəzi valideynlərin məsuliyyətsizliyindən uşaqlar dərsdən yayınırlar, fiziki əmək tələb olunan işlərə cəlb olunurlar. Hətta bəzi regionlarımızda azyaşlı məktəbli qızlarımız öz valideynləri tərəfindən məktəbdən yayındırılaraq evliliyə cəlb edilirlər. Bu baxımdan, qanun layihəsinin bu maddəsi sosial tələblərin ifadəsidir desək yanılmarıq.

Ümümtəhsil müəssisəsinin maliyyələşdirilməsi və sahibkarlıq fəaliyyəti ilə bağlı qanun layihəsinin 30 və 31-ci maddələri də çox əhəmiyyətlidir. Bununla bağlı qanun layihəsinə, o cümlədən vergi qanunvericiliyinə əlavə təkli-

fim odur ki, təhsilin inkişafı ilə bağlı ianələr verən, yaxud xeyriyyəçilik edən sahibkarlara vergi güzəştləri tətbiq edilsin.

Ancaq onu da bildirim ki, qanun layihəsinin bəzi müddəalarının yazı üslubunda müəyyən düzəlişlər olunmalıdır. Məsələn, qanun layihəsinin əsas anlayışlar olan hissəsinin 1.0.1-ci maddəsində dil üslubu baxımından, azkomplektli məktəb ifadəsini aztərkibli məktəb ifadəsi ilə əvəz etmək mümkündür. Düzdür, dil leksikonumuza inteqrasiya olunan müasir ifadələr çoxdur və ondan istifadə edə bilərik. Ancaq bəzən tələffüzü asan və başadüşülən ifadələrimizdən də imtina etməməliyik.

Bundan başqa, qanun layihəsinin 6-cı maddəsinin 1-ci bəndində yazılır ki, "Ümumtəhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir". Düşünürəm ki, həmin maddədəki cümlə "Ümumtəhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilində aparılmalıdır" yazılsa, daha yaxşı olar.

Yaxud, qanun layihəsinin 12-ci maddəsinin 10-cu bəndində "təsisçilər tərəfindən" ifadəsi həmin maddənin sonuncu iki cümləsindən əvvəl yazılaraq, "Bələdiyyə və özəl ümumi təhsil müəssisələrinin nizamnamələri və onlarda edilən dəyişikliklər müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla təsisçilər tərəfindən təsdiq edilir" kimi yazıla bilər.

Digər məsələ qanun layihəsinin 12.1-ci maddəsi ilə bağlıdır. Təklif edirəm ki, həmin maddə aşağıdakı kimi yazılsın: "Müvafiq qanunvericiliyə uyğun olaraq, ümumtəhsil müəssisəsi publik hüquqi şəxs və müstəqil balansa malik ola, banklarda hesablaşma hesabı və digər hesablar yarada bilər." Çünki qanun layihəsində göstərildiyi kimi, bütün ümumtəhsil müəssisələrinin publik hüquqi şəxs ol-

maları mümkün deyildir.

Ən nəhayət, sonuncu təklifim ümumtəhsil müəssisəsinin təsisçiliyi ilə bağlı olan 15-ci maddə ilə bağlıdır. Düşünürəm ki, dövlətin ideologiyasının, yaxud milli təhlükəsizliyinin təmin olunması ilk növbədə təhsil müəssisələrindən başlamalıdır. Ən yaxın tarix bizə bunu deməyə imkan verir ki, xarici xüsusi ideologiyalar məhz təhsil vasitəsilə müdaxilələr və təhdidlər edir. Bu baxımdan, mən qanun layihəsində yazılandan fərqli olaraq təklif edirəm ki, təsisçisi əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbəri və tədrisə cavabdeh olan müavini Azərbaycan Respublikasının vətəndaşları olsun. Qanun layihəsində direktor müavininin Azərbaycan Respublikasının vətəndaşı olması şərt kimi qeyd olunur. Bir daha bildirirəm ki, qanun layihəsi mütərəqqidir və mən ona səs verəcəyəm. Diqqətinizə görə minnətdaram.

**Sahibə Qafarova.** Hörmətli həmkarlar, ölkəmizdə reallaşdırılan daxili siyasətin çox mühüm istiqamətlərindən birini gənclər siyasəti təşkil edir. Bu siyasət çərçivəsində cəmiyyətin fəal təbəqəsi olan gənclərin yüksək diqqət və qayğı ilə əhatə olunması böyük əhəmiyyətə malikdir. Ölkəmizdə dövlət gənclər siyasəti sistemli və konseptual xarakter daşıyır. Gənclər Fondunun yaradılması, gənclərin bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması və onların hökumət tərəfindən dəstəklənməsi, gənclər üçün Prezident mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən gənclər mərkəzlərinin və gənclər evlərinin tikilməsi uğurlu gənclər siyasətinin səmərəliliyini daha da artıran əhəmiyyətli faktorlardır.

Gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsi, intellektual inkişafı strateji əhəmiyyətli məsələdir. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yüksək səviyyəli inkişafı gənclərimiz üçün də böyük perspektiv və imkanlar yaradır. Azərbaycan əhalisinin təxminən 35 faizini yaşı 30-a qədər olan gənclər təşkil edir. Bunun özü həm çox böyük bir göstərici, həm də ölkənin güclü inkişaf enerjisi olduğunu sübut edən məqamlardan biridir. Azərbaycan dövləti haqlı olaraq bu güclü potensialı səfərbər etmək, gənclərin imkanlarından bəhrələnmək üçün bütün mümkün addımları atmaqdadır. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial, iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir.

Azərbaycan gənclərlə bağlı ayrıca qanun qəbul olunmuş və dövlət proqramı icra edilən azsaylı dövlətlərdən biridir. Həm qanunlarda, həm də dövlət proqramlarında gənclərin inkişaf etdirilməsi ilə bağlı konkret tədbirlər əksini tapmaqdadır. Bu proqramların uğurla icra olunması müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına möhkəm zəmin yaradıb, gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilib.

Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gənclər ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan gəncləri gününə həsr olunmuş respublika toplantısında çıxışı zamanı "Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstə-

rirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər", – deyə diqqətə çatdırdı. Həqiqətən də, bu gün ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən, eyni zamanda, respublikamızın ictimai-siyasi, iqtisadi həyatında fəal rol oynayan Azərbaycan gəncləri vətənpərvər, yüksək intellektli, milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, dövlətə və vətənə sadiq olmaqla yanaşı, ictimai-siyasi məsələlərlə bağlı əsl vətəndaşlıq mövqeyindən çıxış edərək yüksək fəallıq və təşəbbüskarlıq göstərirlər.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi zamanın tələbindən irəli gələrək ölkəmizin gələcəyi olan gənc nəslin daha etibarlı şəkildə hüquqlarının qorunmasına, onların inkişafına, sosial müdafiəsinin təşkilinə xidmət edir. Təklif olunan dəyişikliklər gənclərlə bağlı həyata keçirilən dövlət siyasətinin daha uğurlu nəticələr verməsinə hüquqi təminat yaradır. Burada gənclərin fəaliyyətinin dəstəklənməsi, sosial müdafiəyə ehtiyacı olan gənclərə, həmçinin həssas risk qruplarına aid olan gənclərə dövlət dəstəyinin gücləndirilməsi, gənc alim və tədqiqatçıların fəaliyyətinin təşviq olunması, dövlət siyasətinin prioritetləri müəyyənləşdirilərkən gənclərin maraq və mənafelərinin nəzərə alınması, gənclər siyasətinin formalaşdırılmasında gənclərin iştirakının təmin olunması kimi mühüm dəyişikliklərin edilməsi qanunun əhatəliliyini və effektivliyini daha da artırır. Bundan başqa, aztəminatlı gənc ailələrin sosial müdafiəsinin təşkili, gənclər arasında hər növ ekstremizm və radikalizmin qarşısının alınması, gənclərin inkişafı ilə bağlı çoxşaxəli tədbirlərin təşkili, gənclərə sosial-psixoloji, hüquqi, informasiya yardımının göstərilməsi, gənclərin aktiv məşğulluq tədbirlərinə cəlb olunması, asudə vaxtlarının səmərəli təşkili kimi məqamlar da qeyd olunmalıdır.

Həmçinin mühüm məsələlərdən biri də gənclərin könüllülük fəaliyyətidir. Bildiyimiz kimi, son dövrlər ölkəmizdə könüllülük hərəkatı çox geniş vüsət alıb. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan gəncləri gününə həsr olunmuş respublika toplantısında çıxışı zamanı bir daha bu prosesi alqışlayaraq könüllülər hərəkatının əhəmiyyətini xüsusi qeyd etdi. Qanuna gənclətin könüllü fəaliyyəti ilə bağlı əlavənin edilməsi təqdirəlayiqdir.

Beləliklə, hesab edirəm ki, qanuna təklif olunan dəyişikliklər kifayət qədər əsaslı olmaqla dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinə imkan verəcək. Bununla yanaşı, bu dəyişikliklər Azərbaycanda həyata keçirilən sosial siyasətin məramlarını, sosial dövlət fəlsəfəsini açıq şəkildə tərənnüm edir.